RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN




№ 215 (9382) 4 OKTYABR 2023-cü il ÇƏRŞƏNBƏ

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR



# Azərbaycan şərtlərini elan etdi

## Reinteqrasiya İlham Əliyevin regionda formalaşdırdığı yeni reallığın tərkib hissəsidir

İlkin mərhələdə Qarabağ bölgəsində yaşayan erməni sakinlərin qeydiyyatının aparılması üçün zəruri tədbirlər görülür. Ermənilərin Azərbaycan dövlətinin himayəsindən istifadə etmələrinə imkan yaradılması məqsədilə Qarabağ bölgəsində sosial, humanitar, iqtisadi və infrastruktur məsələlərinin həlli üzrə İşçi qrupa həmin şəxslərin hüquqi statusunun müəyyən olunması ilə bağlı verilən müvafiq tapşırıqlar çərçivəsində Dövlət Miqrasiya Xidmətinin, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin əməkdaşları Qarabağ iqtisadi rayonunda fəaliyyətə başlayıblar. Dövlət Miqrasiya Xidmətinin əməkdaşları Qarabağ bölgəsində yaşayan erməni sakinlərin ilkin qeydiyyatına dair müraciətlərinin yerində qəbul edilməsi və bununla əlaqədar maarifləndirmə tədbirlərinin yerində təşkili, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin əməkdaşları isə sakinlərin sosial-humanitar ehtiyaclarının müəyyənləşdirilməsi ilə bağlı fəaliyyət göstərirlər. Reinteqrasiya prosesinə qoşulmaq məqsədilə ilkin qeydiyyat üçün müraciətlərin qəbulu Dövlət Miqrasiya Xidmətinin əməkdaşları tərəfindən Xankəndi şəhərində yerləşən keçmiş "polis" binasında aparılır.

→ 6

## Azərbaycan Almaniya ilə əlaqələri möhkəmləndirmək əzmindədir

### Almaniya Federativ Respublikasının Prezidenti zati-aliləri cənab Frank-Valter Ştaynmayerə

Hörmətli cənab Prezident!

3 Oktyabr - Alman Birliyi Günü münasibətilə Sizə və bütün xalqınıza öz adımdan və Azərbaycan xalqı adından ən səmimi təbriklərimi çatdırıram.

Biz Azərbaycan ilə Almaniya arasında dostluq və əməkdaşlıq münasibətlərinin inkişafına böyük əhəmiyyət veririk. Ölkələrimizin siyasi, iqtisadi və humanitar sahələrdə fəal və səmərəli əməkdaşlığı məmnunluq doğurur.

Azərbaycan Almaniya ilə əlaqələri möhkəmləndirmək və qarşılıqlı faydalı əməkdaşlığı davam etdirmək əzmindədir. Əminəm ki, həm dövlətlərarası münasibətlərimiz, həm də Avropa İttifaqı çərçivəsində qarşılıqlı maraq doğuran qarşılıqlı fəaliyyətimiz bundan sonra ardıcıl şəkildə inkişaf edəcək və möhkəmlənəcəkdir.

Belə bir əlamətdar gündə Sizə ən xoş arzularımı yetirir, dost Almaniya xalqına daim əmin-amanlıq və rifah diləyirəm.

*Hörmətlə,*

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 30 sentyabr 2023-cü il*

## Azərbaycan-Koreya əməkdaşlığı xoş ənənələrə malikdir

### Koreya Respublikasının Prezidenti zati-aliləri cənab Yun Sok Yola

Hörmətli cənab Prezident!

Koreya Respublikasının milli bayramı münasibətilə Sizi və bütün xalqınızı öz adımdan və Azərbaycan xalqı adından səmimi-qəlbdən təbrik edirəm.

Azərbaycan-Koreya dostluq və əməkdaşlıq münasibətləri xoş ənənələrə malikdir. Dövlətlərarası əlaqələrimizin inkişaf dinamikası, qarşılıqlı maraq doğuran əməkdaşlığımızın genişlənməsi bizi sevindirir.

Koreya şirkətləri uzun illərdən bəri Azərbaycanda çox uğurla fəaliyyət göstərirlər. Ölkənizi təmsil edən şirkətlər işğaldan azad edilmiş torpaqlarımızda aparılan bərpa və yenidənqurma işlərinə istehsal etdikləri qabaqcıl və müasir texnologiyalar vasitəsilə töhfə verə bilərlər. İnanıram ki, mövcud imkanlardan yararlanaraq birgə səylərimizlə böyük potensiala malik olan münasibətlərimizi və səmərəli əməkdaşlığımızı bundan sonra da dərinləşdirəcəyik.

Belə bir bayram günündə Sizə möhkəm cansağlığı, xoşbəxtlik, dost Koreya Respublikasına daim əmin-amanlıq və firavanlıq arzulayıram.

*Hörmətlə,*

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 30 sentyabr 2023-cü il*

## Azərbaycan-İraq münasibətləri dostluq məcrasında inkişaf edəcək

### İraq Respublikasının Prezidenti zati-aliləri cənab Əbdüllətif Camal Rəşidə

Hörmətli cənab Prezident!

İraq Respublikasının milli bayramı münasibətilə Sizi və bütün xalqınızı şəxsən öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edir və ən xoş arzularımı çatdırıram.

İnanıram ki, Azərbaycan-İraq münasibətləri birgə səylərimizlə bundan sonra da dostluq və əməkdaşlıq məcrasında inkişaf edəcək və möhkəmlənəcəkdir.

Bu bayram günündə Sizə möhkəm cansağlığı, işlərinizdə müvəffəqiyyətlər, dost İraq xalqına daim əmin-amanlıq və rifah arzulayıram.

*Hörmətlə,*

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 2 oktyabr 2023-cü il*

**MÖHTƏŞƏM 20 İL**

## O, müasir dünya siyasətini gözəl bilir

### Ulu Öndər Heydər Əliyevin uzaqgörənliklə söylədiyi bu sözlər İlham Əliyevin ölkəyə rəhbərliyi dövründə dəfələrlə təsdiqini tapıb

Azərbaycan Prezidenti İlham Əliyevin ən mühüm uğurlarından biri beynəlxalq təşkilatlara rəhbər seçilməsi, onlara rəhbərliyi dövründə yeni, daha müasir və fərqli siyasət yürütməsi, həmin qurumların nüfuzunu yüksəltməsi, fəaliyyətlərini gücləndirərək onlara yeni nəfəs verməsidir.

İrəlicədən qeyd edək ki, cənab İlham Əliyevin beynəlxalq qurumlara rəhbərliyi zamanı atdığı uzaqgörən və cəsarətli addımlar onun müasir dünya siyasətini dərindən bildiyinin bir daha təsdiqinə çevrildi.

İlham Əliyev xarakterçə güclü, iradəli, cəsarətli və döyüşkən bir insandır!

Sözünü deməyi, mövqeyini sonadək və qətiyyətlə müdafiə etməyi yaxşı bacarır.

Azərbaycan 2011-ci il oktyabrın 24-də 155 dövlətin dəstəyi ilə BMT Təhlükəsizlik Şurasına qeyri-daimi üzv seçildi.

Əslində, bu həm də Azərbaycanın beynəlxalq nüfuzunun və hörmətinin növbəti təsdiqi idi.

İlham Əliyev təşkilatın iclasına sədrliyi dövründə bu yüksək tribunadan təkcə Azərbaycanın maraqlarını, erməni yalanlarının ifşası və əsl həqiqətlərin dünyaya çatdırılması vasitəsi kimi istifadə etmədi...

Dünyada baş verən mənfi proseslərdən, inkişaf etməkdə olan ölkələrin problemlərindən, bəşəriyyəti gözləyən təhlükələrdən söhbət açdı, onların qarşısının alınması, köməyə ehtiyacı olan ölkələrə yardım göstərilməsi üçün səmərəli təkliflər verdi.

Azərbaycan Prezidenti BMT-nin tribunasından istifadə edərək BMT-də islahatlar aparılmasının vacibliyini, onun veto hüququna malik daimi üzvlərinin sayının artırılmasının, qəbul etdiyi qətnamələrin icrasına nail olması mexanizminin hazırlanması zamanının çatdığını da göstərdi və əsaslandırdı.

Onun bu mövqeyi müstəmləkəçilik qalıqlarından əziyyət çəkən, güclü dövlətlərin istismarına məruz qalan, daim köməyə ehtiyac duyan dövlətlər tərəfindən yüksək qiymətləndirilərək bəyənildi, Azərbaycana rəğbət bəsləyənlərin sayını əhəmiyyətli dərəcədə artırdı.

→ 3

## Xankəndidə dövlət idarəçiliyi təmin olundu

İndi Qarabağ Azərbaycan qanunlarının işlədiyi, mərkəzi hakimiyyətin idarə etdiyi, dövlət qurumlarımızın fəaliyyət göstərdiyi bölgəyə çevrilib.

Hazırda Xankəndidə Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi, Müdafiə Nazirliyi, Fövqəladə Hallar Nazirliyi, Səhiyyə Nazirliyi, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, Dövlət Miqrasiya Xidməti, Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi fəaliyyət göstərir.

Azərbaycan Respublikası Prezidenti Administrasiyasının məlumatında bildirilir ki, Dövlət Miqrasiya Xidmətinin əməkdaşları Qarabağ bölgəsində yaşayan erməni sakinlərin ilkin qeydiyyatına dair müraciətlərinin yerində qəbul edilməsi və bununla əlaqədar maarifləndirmə tədbirlərinin yerində təşkili, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin əməkdaşları isə sakinlərin sosial-humanitar ehtiyaclarının müəyyənləşdirilməsi ilə bağlı fəaliyyət göstərirlər.

→ 6

## "Boz zona" aydınlığa çıxdı

### Artıq Azərbaycan ərazilərində nə separatçılar var, nə də onların qondarma qurumu

Artıq Azərbaycan ərazisində erməni separatizmi yoxdur. Prezident İlham Əliyevin dediyi kimi: "Sentyabrın 20-də biz öz suverenliyimizi bərpa etdik. Yəni artıq "boz zona"lar yoxdur, qeyri-qanuni strukturlar yoxdur və torpaqlarımızda separatçılığa son qoyulubdur. Bu, bizim güclü siyasi iradəmizin göstəricisidir".

Azərbaycan torpaqlarında "erməni dövləti" söhbəti tamamilə bağlandı. İndi həmin "boz zona"da Azərbaycanın qanunları hakimdir. Azərbaycanın bu ərazilərində dövlət qurumları fəaliyyət göstərirlər. Ermənistan və dünya erməniliyinin Qarabağda ermənilərin guya etnik təmizləməyə məruz qalmaları ilə bağlı iddiaları isə ifşa olundu. Elə bu günlərdə Qarabağa səfər etmiş BMT missiyası erməni yalanlarına böyük zərbə vurdu.

Beləliklə, Azərbaycan dövləti bütün Qarabağda öz suverenliyini təmin edib. Bu ərazilər də bərpa olunacaq, yenidən qurulacaq, sakinlərinin rifahı təmin ediləcək.

→ 7

## Azərbaycan həm də kosmos ölkəsidir

Prezidentimiz konqresin fəaliyyətinə böyük əhəmiyyət verməklə bərabər, müstəqillik dövründə Azərbaycanın keçdiyi yola, yürütdüyü siyasətə, beynəlxalq aləmlə əlaqələrin möhkəmləndirilməsində göstərdiyi səylərə, qazanılan uğurlara diqqəti cəlb etmiş və demişdir ki, "bizim səylərimiz hər zaman aydın, şəffaf və birmənalı olub və dostlar qazanmasına və əməkdaşlığın gücləndirilməsinə yönəlib. Beynəlxalq ictimaiyyətin fəal üzvü kimi Azərbaycan çoxsaylı siyasi, iqtisadi və regional inkişaf layihələrində iştirak edir".

→ 5

## Naxçıvanda da enerjinin rəngi dəyişir

Naxçıvan Muxtar Respublikasında "yaşıl enerji"nin inkişafının başlanğıcı illər əvvələ gedib çıxır. Məlumdur ki, muxtar respublikada hələ 1992-ci ildə Qaz-Turbin Elektrik Stansiyası istifadəyə verilmişdir. Ondan sonrakı dövrdə Naxçıvanın elektrik enerjisinə olan tələbatı qardaş Türkiyədən çəkilən elektrik xətti vasitəsilə ödənilsə də, regionda 87 meqavatlıq modul-elektrik stansiyası, yeni su və günəş-elektrik stansiyaları tikilmişdir. Bununla da muxtar respublikanın enerji təhlükəsizliyi təmin olunmuş və bu qədim diyarın müasir, yeni dünya ilə sürətlə ayaqlaşmasına şərait yaradılmışdır.

→ 10

## Ermənistan Putini cinayətkar hesab edir

### Və həbsinə hazırlaşır

Məlumdur ki, Rusiyanın orbitindən uzaqlaşmaq, ərazisindəki rus hərbi bazalarını çıxarmaq baş nazir Nikol Paşinyanın qarşısında duran prioritet məsələ olub və indi də nəyin bahasına olursa-olsun, bu tələbi reallaşdırmağa çalışır. Şübhəsiz, bu istiqamətdə ilk addım da Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatından (KTMT) çıxmaq qərarıdır. Baş nazir Nikol Paşinyan təşkilatı tərk etmək barədə Qərbin qoyduğu tələbi artıq reallaşdırmaq üzrədir.

→ 11




→ 8

# İmişli rayonunun Ağsu-Kürdəmir-Bəhrəmtəpə (71 km)-Məmmədli-Ağamalılar-Əlyetməzli-Allahmədətli-Telişli avtomobil yolunun tikintisi ilə bağlı tədbirlər haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Doqquz min nəfər əhalinin yaşadığı 5 yaşayış məntəqəsini birləşdirən Ağsu-Kürdəmir-Bəhrəmtəpə (71 km)-Məmmədli-Ağamalılar-Əlyetməzli-Allahmədətli-Telişli avtomobil yolunun tikintisi məqsədilə "Azərbaycan Respublikasının 2023-cü il dövlət büdcəsində dövlət əsaslı vəsait qoyuluşu (investisiya xərcləri) üçün nəzərdə tutulan vəsaitin bölgüsü"nün 1.31.6-cı yarımbəndinə uyğun olaraq, Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinə 15,8 milyon (on beş milyon səkkiz yüz min) manat ayrılsın.

2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 3 oktyabr 2023-cü il*

# M.Ş.Məmmədovun "Şöhrət" ordeni ilə təltif edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikasının ictimai-siyasi həyatında səmərəli fəaliyyətinə görə Məşhur Şahbaz oğlu Məmmədov "Şöhrət" ordeni ilə təltif edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 3 oktyabr 2023-cü il*

# Azərbaycan Respublikasının Prezidenti zati-aliləri cənab İlham Əliyevə

Zati-aliləri!

Azərbaycan Respublikasının ərazi bütövlüyünün tam təmin olunması münasibətilə Sizə səmimi təbriklərimi çatdırıram.

Bu, Cənubi Qafqazda ədalət, sabitlik və bütün xalqların rifahı üçün əsas şərt idi. Qarabağ Azərbaycana məxsusdur və daim onun bir hissəsi olacaqdır.

Cənab Prezident, Azərbaycanın Bosniya və Herseqovina ilə münasibətlərinin möhkəmlənməsinə verdiyiniz töhfəyə görə Sizə minnətdarlığımı bildirirəm.

Sizinlə 2024-cü ilin martında XI Qlobal Bakı Forumunda görüşməyi səbirsizliklə gözləyirəm.

*Hörmətlə,*

***Şefik CAFEROVİÇ,***
***2018-2022-ci illərdə Bosniya və Herseqovinanın Rəyasət Heyətinin üzvü, Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin üzvü***

# "ABŞ Konqresinin bir qrup üzvünün Prezident Baydenə qərəzli məktubunu sərt şəkildə qınayırıq"

"Biz, Ermənistandan qovulmuş azərbaycanlıları özündə birləşdirən Qərbi Azərbaycan İcması, Amerika Birləşmiş Ştatları (ABŞ) Konqresinin bir qrup üzvünün Prezident Cozef Baydenə 2023-cü il oktyabrın 2-də göndərdiyi qərəzli məktubu sərt şəkildə qınayırıq".

AZƏRTAC xəbər verir ki, bu fikirlər Qərbi Azərbaycan İcmasının açıqlamasında yer alıb.

Açıqlamada həmçinin bildirilib: "Məktub mahiyyətcə yanlışdır, zərərlidir və etnik azərbaycanlılara qarşı qərəz və ayrı-seçkiliyi bariz şəkildə göstərir. Belə görünür ki, Qarabağın erməni sakinlərinin tamhüquqlu vətəndaş kimi Azərbaycana reinteqrasiyasına qarşı çıxan və regionda monoetnikliyi dəstəkləyən təkcə Ermənistan hökuməti deyil, həm də Konqresin məlum üzvləri imiş.

ABŞ-nin Azərbaycana dövlət yardımını qadağan edən mənfur 907-ci maddənin tətbiqinin bərpa edilməsi və əlavə sanksiyalar barədə konqresmenlərin çağırışı ədalətsiz və qeyri-dost addımdır. Ərazisinin 20 faizi Ermənistan tərəfindən işğala məruz qalmış, bir milyon qaçqın və məcburi köçkün problemi ilə üzləşmiş, 30 mindən artıq sakini öldürülmüş, minə yaxın şəhər və kəndi dağıdılmış Azərbaycana qarşı bu mənfi addımlara çağırmaqla, konqresmenlər faktiki olaraq, Ermənistanın sözügedən cinayətlərinə şərik olurlar.

Müharibə cinayətləri və insanlıq əleyhinə cinayətlərdə, o cümlədən Xocalı soyqırımı, Qaradağlı, Meşəli, Malıbəyli qətliamlarında və Azərbaycanın şəhərlərini raket atəşinə tutmaqda iştiraklarına dair ciddi əsaslar olan separatçıları müdafiə etmək ABŞ konqresmenlərinə şərəf gətirmir.

Nəhayət, vurğulamaq istərdik ki, ABŞ konqresmenləri bir dəfə də olsun Ermənistandan 300 minə yaxın azərbaycanlının qovulması faktına münasibət bildirməyiblər. Bu məsələyə dair ABŞ Konqresinin Tom Lantos adına insan hüquqları komissiyasına göndərdiyimiz müraciət cavabsız qalıb.

Biz konqresmenləri etnik və dini əsaslı ayrı-seçkilik və qərəzli yanaşmalarına son verməyə, Azərbaycanın ərazi bütövlüyü və suverenliyinə hörmət etməyə, onun etnik müxtəliflik və birgəyaşayışa əsaslanan reinteqrasiya tədbirlərinə dəstək verməyə, Ermənistanın törətdiyi müharibə cinayətləri və insanlıq əleyhinə cinayətlərə münasibət bildirməyə və Ermənistandan qovulmuş azərbaycanlıların təhlükəsiz şəkildə öz evlərinə qayıtmasına dəstək verməyə çağırırıq".

# Azərbaycan Respublikasının Nazirlər Kabineti

**№ 350** — **QƏRAR** — **Bakı şəhəri, 2 oktyabr 2023-cü il**

## "Yüksək riskli zonaların müəyyən edilmə əsasları"nın təsdiq edilməsi haqqında

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında" Azərbaycan Respublikasının 2022-ci il 30 dekabr tarixli 781-VIQ nömrəli Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 31 yanvar tarixli 2007 nömrəli Fərmanının 2.1.3-cü yarımbəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. "Yüksək riskli zonaların müəyyən edilmə əsasları" təsdiq edilsin (əlavə olunur).

2. "Cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılmasında, terrorçuluğun maliyyələşdirilməsində, transmilli mütəşəkkil cinayətkarlığı, habelə silahlı separatizmi, ekstremizmi və muzdluluğu dəstəkləməsində, narkotik vasitələrin və ya psixotrop maddələrin qanunsuz dövriyyəsində iştirakı ehtimal olunan, maliyyə əməliyyatlarının aparılması zamanı eyniləşdirmə məlumatlarının açıqlanması tələb olunmayan dövlətlərin (ərazilərin) siyahısının müəyyən edilməsi Qaydası"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2010-cu il 25 iyun tarixli 123 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2010, № 6, maddə 567; 2016, № 8, maddə 1449; 2018, № 6, maddə 1364; 2019, № 2, maddə 348) ləğv edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

*Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2023-cü il 2 oktyabr tarixli 350 nömrəli Qərarı ilə təsdiq edilmişdir.*

## Yüksək riskli zonaların müəyyən edilmə əsasları

1. Bu sənəd "Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında" Azərbaycan Respublikası Qanununun 9.4-cü maddəsinə uyğun olaraq hazırlanmışdır və yüksək riskli zonaların müəyyən edilmə əsaslarını tənzimləyir.

2. Yüksək riskli zonalar aşağıdakılara əsasən müəyyənləşdirilir:

2.1. Birləşmiş Millətlər Təşkilatının Təhlükəsizlik Şurasının, Dünya Bankının və Beynəlxalq Valyuta Fondunun qərarları;

2.2. Maliyyə Tədbirləri üzrə İşçi Qrupu (FATF), Avropa Şurasının Pulların Leqallaşdırılmasına və Terrorçuluğun Maliyyələşdirilməsinə qarşı Tədbirlərin Qiymətləndirilməsi üzrə Ekspertlər Komitəsi (MONEYVAL), FATF tipli regional qurumlar (FSRB), digər ixtisaslaşmış beynəlxalq və ya regional təşkilatların dərc edilmiş qarşılıqlı qiymətləndirmə və ya təfsilatlı hesabatları, habelə tərəqqi hesabatları;

2.3. FATF tərəfindən edilmiş ictimai bəyanatlar.

3. Bu sənədin 2-ci hissəsində qeyd olunanlar "Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında" Azərbaycan Respublikası Qanununun 9.5-ci maddəsinə uyğun olaraq yüksək riskli zonaların siyahısının müəyyən edilməsi üçün əsasdır.

# Azərbaycan Respublikasının Nazirlər Kabineti

**№ 351** — **QƏRAR** — **Bakı şəhəri, 3 oktyabr 2023-cü il**

## Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2015-ci il 2 fevral tarixli 21 nömrəli Qərarı ilə təsdiq edilmiş "Bağlaşma əsasında həqiqi hərbi xidmətə daxilolmanın halları və Qaydası"nda dəyişiklik edilməsi haqqında

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Azərbaycan Respublikasının 1997-ci il 3 oktyabr tarixli 377-IQ nömrəli Qanunu ilə təsdiq edilmiş "Hərbi xidmətkeçmə haqqında Əsasnamə"də dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2022-ci il 20 dekabr tarixli 736-VIQD nömrəli Qanununun icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2015-ci il 2 fevral tarixli 21 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2015, № 2, maddə 211, № 5, maddə 658; 2016, № 8, maddə 1456, № 9, maddə 1585; 2017, № 4, maddə 620; 2021, № 12, maddə 1542; 2022, № 8, maddələr 973, 979, 1020; 2023, № 5, maddə 729) ilə təsdiq edilmiş "Bağlaşma əsasında həqiqi hərbi xidmətə daxilolmanın halları və Qaydası"nda aşağıdakı dəyişikliklər edilsin:

1. Aşağıdakı məzmunda 3.4-1-ci bənd əlavə edilsin:

"3.4-1. Bu Qaydanın 3.4-cü bəndində qeyd edilən sənədlərin Elektron Hökumət İnformasiya Sistemi vasitəsilə müvafiq dövlət orqanından (qurumundan) əldə edilməsi mümkün olduqda, həmin sənədlər bağlaşma əsasında həqiqi hərbi xidmətə könüllü daxil olmaq barəsində arzusunu bildirən şəxsdən tələb edilmir. Bu sənədlərin Elektron Hökumət İnformasiya Sistemi vasitəsilə əldə edilməsi mümkün olmadığı hallarda onların təqdim edilməsi bağlaşma əsasında həqiqi hərbi xidmətə könüllü daxil olmaq barəsində arzusunu bildirən şəxsin razılığı ilə sorğu əsasında müvafiq dövlət orqanından (qurumundan) tələb olunur və ya həmin şəxs tərəfindən təmin edilir.".

2. 3.6-cı bəndə "sənədlər" sözündən sonra "(bu Qaydanın 3.4-1-ci bəndinin tələbləri nəzərə alınmaqla)" sözləri əlavə edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Azərbaycan Respublikasının Nazirlər Kabineti

**№ 352** — **QƏRAR** — **Bakı şəhəri, 3 oktyabr 2023-cü il**

## Azərbaycan Respublikası Nazirlər Kabinetinin "Filmlərin yayımı və nümayişi Qaydaları"nın təsdiq edilməsi haqqında" 2006-cı il 6 iyul tarixli 165 nömrəli və "Azərbaycan Respublikasında gəmilərin dövlət qeydiyyatına alınması Qaydaları"nın təsdiq edilməsi barədə" 2010-cu il 4 iyun tarixli 105 nömrəli qərarlarında dəyişiklik edilməsi haqqında

"Azərbaycan Respublikası Prezidentinin 2007-ci il 11 aprel tarixli 564 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Daşınar əmlakın rəsmi reyestrləri, onların tərtib edilməsi və aparılması Qaydaları"nda dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 20 aprel tarixli 2119 nömrəli Fərmanının icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2006-cı il 6 iyul tarixli 165 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006, № 7, maddə 633; 2008, № 3, maddə 239; 2016, № 9, maddə 1562; 2020, № 3, maddə 370, № 10, maddə 1311) ilə təsdiq edilmiş "Filmlərin yayımı və nümayişi Qaydaları"nda aşağıdakı dəyişikliklər edilsin:

1.1. aşağıdakı məzmunda 6-1-ci hissə əlavə edilsin:

"6-1. Bu Qaydaların 6-cı hissəsində qeyd olunan sənədlərin və ya məlumatların Elektron Hökumət İnformasiya Sistemi vasitəsilə müvafiq dövlət orqanından (qurumundan) əldə edilməsi mümkün olduqda, həmin sənədlər və ya məlumatlar mülkiyyətçi və ya filmdən istifadə hüququnu həyata keçirən şəxsdən tələb edilmir. Belə sənədlərin və ya məlumatların Elektron Hökumət İnformasiya Sistemi vasitəsilə əldə edilməsi mümkün olmadığı hallarda onların təqdim edilməsi mülkiyyətçi və ya filmdən istifadə hüququnu həyata keçirən şəxsin razılığı ilə sorğu əsasında müvafiq dövlət orqanından (qurumundan) tələb olunur və yaxud mülkiyyətçi və ya filmdən istifadə hüququnu həyata keçirən şəxs tərəfindən təmin edilir.";

1.2. 9-cu hissəyə "riayət edilmədikdə" sözlərindən sonra "(bu Qaydaların 6-1-ci hissəsinin tələbləri nəzərə alınmaqla)" sözləri əlavə edilsin.

2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2010-cu il 4 iyun tarixli 105 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2010, № 6, maddə 551; 2013, № 5, maddə 588, № 8, maddə 997; 2017, № 12 (II kitab), maddə 2527; 2019, № 6, maddə 1173; 2022, № 4, maddə 376) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında gəmilərin dövlət qeydiyyatına alınması Qaydaları"nda aşağıdakı dəyişikliklər edilsin:

2.1. aşağıdakı məzmunda 2.8-1-ci bənd əlavə edilsin:

"2.8-1. Bu Qaydaların 2.8-ci bəndində qeyd olunan sənədlərin və ya məlumatların Elektron Hökumət İnformasiya Sistemi vasitəsilə müvafiq dövlət orqanından (qurumundan) əldə edilməsi mümkün olduqda, həmin sənədlər və ya məlumatlar gəminin mülkiyyətçiləri və ya onun üzərində digər əşya hüquqlarına malik olan şəxslərdən tələb edilmir. Belə sənədlərin və ya məlumatların Elektron Hökumət İnformasiya Sistemi vasitəsilə əldə edilməsi mümkün olmadığı hallarda onların təqdim edilməsi gəminin mülkiyyətçiləri və ya onun üzərində digər əşya hüquqlarına malik olan şəxslərin razılığı ilə sorğu əsasında müvafiq dövlət orqanından (qurumundan) tələb olunur və yaxud gəminin mülkiyyətçiləri və ya onun üzərində digər əşya hüquqlarına malik olan şəxslər tərəfindən təmin edilir.";

2.2. 2.10-cu bəndə "sənədlərdə" sözündən sonra "(bu Qaydaların 2.8-1-ci bəndinin tələbləri nəzərə alınmaqla)" sözləri əlavə edilsin;

2.3. 5.1.1-ci yarımbəndə "sənədlər" sözündən sonra "(bu Qaydaların 2.8-1-ci bəndinin tələbləri nəzərə alınmaqla)" sözləri əlavə edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# "İkili standart siyasətini, nəhayət, dayandırmaq lazımdır"

### Elçin Əmirbəyov "Radio J" kanalına müsahibə verib



Azərbaycan Prezidentinin xüsusi tapşırıqlar üzrə nümayəndəsi Elçin Əmirbəyov Fransanın "Radio J" radio kanalına müsahibə verib.

AZƏRTAC xəbər verir ki, Elçin Əmirbəyov Azərbaycan tərəfindən Qarabağda həyata keçirilən lokal xarakterli antiterror tədbirləri barədə məlumat verib. Bildirib ki, antiterror tədbirlərində məqsəd legitim hərbi hədəfləri yox etmək idi: "Bu bizim suveren ərazimizdə olan Ermənistan silahlı qüvvələrinə aid qoşuna qarşı idi. Üç il idi Ermənistan öz üzərinə bu məsələ ilə əlaqədar öhdəlik götürmüşdü ki, qoşunlarını bizim ərazimizdən çıxarsın. Amma o bundan imtina edirdi. Üstəlik onların son iki həftədəki təxribatları bizim çoxsaylı hərbçimizin və mülki şəxslərimizin həlak olmasına səbəb olmuşdu. Ona görə də bu bizim reaksiyamız, cavabımız idi. Hədəfimiz qəti surətdə mülki şəxslər deyildi. Yenə deyirəm, hədəfimiz legitim hərbi hədəflər idi".

Azərbaycan Prezidentinin xüsusi tapşırıqlar üzrə nümayəndəsi bildirib ki, hazırda qeyri-qanuni separatçı qurum təslim olub. Onlar özləri öz qeyri-qanuni strukturlarının buraxıldığını elan ediblər. "Hazırda biz erməni icmasının təmsilçiləri ilə dialoq aparırıq. Onlarla artıq 3 görüş keçirilib. Onlarla erməni əhalisinin Azərbaycana reinteqrasiya məsələləri müzakirə edilib", - deyə o əlavə edib.

Aparıcının "Siz effektiv şəkildə izah edirsiniz ki, Qarabağda yaşayan ermənilər getməkdə və qalmaqda sərbəstdirlər... Niyə onların hamısı getməyi seçiblər" sualına cavabında Elçin Əmirbəyov deyib: "Bəli, bu, çox yaxşı sualdır. Ona görə ki, biz, Azərbaycan hökuməti olaraq, antiterror tədbirləri başlayandan bəri mülki əhaliyə elan etmişdik ki, onlar bu hərbi tədbirlərin hədəfi deyillər. Əksinə, çalışıldı ki, onlar qalmaqlarına əmin edilsinlər. Bilmirəm. Ola bilər ki, qeyri-qanuni separatçı qurum bütün silah-sursatı təhvil verdikdən sonra mülki əhali öz təhlükəsizliyindən çox əmin olmadı. Hətta bir həftədən bəri onların yerlərini tərk etməmələri üçün çox cəhdlər olmuşdu. Onlara lazımi humanitar yardımlar göstərilmişdi. Dərman preparatları, ambulanslar, digər ləvazimatlar göndərilmişdi. Elektrik verilişi bərpa edilmişdi. Radio və televiziyalar vasitəsilə də analoji çağırışlar edilmişdi ki, həmin əhali arasında panika olmasın. Bu həqiqətdir ki, evlərini tərk etmək qərarı onların özlərinin şəxsi və könüllü qərarıdır. Biz bundan təəssüf hissi keçiririk. Bir daha deyilir ki, əlbəttə, bu insanlar öz evlərinə qayıtmaq hüququnu özlərində saxlayırlar".

Ermənistanı Qarabağla birləşdirən yolun ekofəallar tərəfindən kəsilməsi iddiasına da cavab verən Elçin Əmirbəyov qeyd edib ki, bu, həqiqəti əks etdirmir: "Beynəlxalq Qırmızı Xaç Komitəsi bütün bu aylar ərzində orada idi. Onlar oraya lazımi tibbi vasitələr gətirirdirlər. Onlar həmçinin ərazini tərk etmək ehtiyacı olanlara da dəstək verirdilər. Bu, həqiqət deyil. Bu yol minaların, hərbi vasitələrin, həmçinin erməni hərbçilərin daşınmasının qarşısının alınması üçün kəsilmişdi".

E.Əmirbəyov həmçinin Ermənistanla aparılan danışıqlar barədə də məlumat verib. Bildirib ki, Azərbaycan Ermənistanla sülh müqaviləsinin imzalanmasını istəyir.

Vurğulanıb ki, işğaldan azad olunan ərazilər vaxtilə Ermənistan tərəfindən tamamilə etnik təmizləməyə məruz qalmış, azərbaycanlılar oradan qovulmuşdular: "Həmin ərazilərdə 1 milyon azərbaycanlı Ermənistan tərəfindən etnik təmizləməyə məruz qalmışdı. Ancaq təəssüf ki, o vaxt Qərb bununla maraqlanmamışdı. İkili standart siyasətini, nəhayət, dayandırmaq lazımdır... Bütün insanlar kimi, bizim insanlarımızın da eyni hüquqları var".

İşğaldan azad olunan ərazilərə BMT missiyasının səfər etdiyini xatırladan Azərbaycan Prezidentinin xüsusi tapşırıqlar üzrə nümayəndəsi diqqətə çatdırıb ki, həmin missiyanın tərkibində müxtəlif xarici KİV-in təmsilçiləri də olublar. "Onlar təsdiq ediblər ki, orada bir neçə yüz insan qalıb... Onların geri qayıtması üçün Azərbaycan hökumətinin səylərini də gözdən qaçırmamaq lazımdır. Hazırda ermənilər bu ərazidə qalmaq istəməyiblər. Üç on illik ərzində bu ərazilərin Ermənistan tərəfindən işğalı öz izini buraxıb. Xatırladım ki, BMT də bu işğalı qınamışdı. İndi isə lazımdır ki, bir çıxış yolu tapılsın, birgəyaşayış təmin olunsun. Həm azərbaycanlılar, həm də ermənilər üçün", - deyə E.Əmirbəyov əlavə edib.

# Bir telekanala və bir radioya Qarabağda yayım üçün lisenziya verilib

Audiovizual Şuranın növbədənkənar iclası keçirilib.

AZƏRBAYCAN RESPUBLİKASI AUDİOVİZUAL ŞURASI

Şuradan AZƏRTAC-a verilən məlumata görə, iclasda Azərbaycan Respublikasının Qarabağ iqtisadi rayonunun ərazisində keçirdiyi uğurlu və sürətli lokal antiterror tədbirləri, bu tədbirlərdən sonra bölgədə yaranan vəziyyət, orada yaşayan əhalinin informasiya təminatının yaradılması və ümumölkə informasiya məkanına reinteqrasiyasının təmin olunması, habelə lisenziyaların alınması üçün "Baku TV" MMC-nin və "Azərbaycan Televiziya və Radio Verilişləri" QSC-nin Audiovizual Şuraya müraciətləri müzakirə olunub.

Qarabağ iqtisadi rayonunun ərazisində yaşayan əhalinin obyektiv və operativ informasiya ilə təminatının yaradılmasının təxirəsalınmazlığını nəzərə alaraq Audiovizual Şura "Baku TV" MMC-yə peyk yayımı həyata keçirən platforma yayımçısı (televiziya redaksiyasının adı "Baku TV"), "Azərbaycan Televiziya və Radio Verilişləri" QSC-yə ümumölkə yerüstü radio yayımçısı (radio redaksiyanın adı "Azərbaycan Beynəlxalq Radiosu") lisenziyalarının verilməsi haqqında müvafiq qərarlar qəbul edilib.



# MÖHTƏŞƏM 20 İL 2003 2023

# O, müasir dünya siyasətini gözəl bilir

## Ulu Öndər Heydər Əliyevin uzaqgörənliklə söylədiyi bu sözlər İlham Əliyevin ölkəyə rəhbərliyi dövründə dəfələrlə təsdiqini tapıb



*Dünya siyasətini dərindən bilmək təkcə bu gün baş verən proseslərdən baş çıxarmaq demək deyil.*

Ən mühüm məsələlərdən biri hadisələri qabaqlamaq, mümkün variantları görərək onların hər birinə irəlicədən hazır olmaqdır!

**Başqa sözlə, əsl siyasətçi sabah, o biri gün, hətta 5-10 il bundan sonra da nələrin baş verəcəyini düzgün proqnoz etməyi bacarmalıdır.**

Təkcə öz maraqlarını güdməklə uğur qazanmaq çətindir!

*Tərəfdaşlarının, əməkdaşlıq etmək istədiklərinin də maraqlarını nəzərə almalısan, maraqların ən səmərəli ortaq nöqtəsini düzgün müəyyən etməlisən!*

Söhbət təkcə siyasi proseslərdən getmir.

Siyasətə bəziləri iqtisadiyyatın çevrilmiş forması da deyirlər.

İqtisadi inkişafın dünya dövlətlərini hansı vəziyyətə gətirəcəyini, kimin nəyə ehtiyac duyacağını bilməsi, onu zamanında qarşılamaq üçün qabaqlayıcı tədbirlərin görülməsi də vacibdir.

**Prezident İlham Əliyevin "düşünülmüş siyasət" adlandırdığı gedişlər bütün bu məqamları, hətta daha artığını özündə ehtiva edir.**

* Düşünülmüş siyasət uzun müddət üçün nəzərdə tutulur və dəqiq gedişlərə hesablanır.

* Düşünülmüş siyasət uzaqgörənlikdir, siyasi proseslərin haraya aparacağını irəlicədən müəyyənləşdirməkdir.

* Düşünülmüş siyasət müxtəlif zamanlarda görülən ayrı-ayrı işlərin vahid məqsədə xidmətinin təmin edilməsidir.

* Düşünülmüş siyasət təsadüflərdən yaranmır, əksinə, təsadüfi hadisələr baş verdikdə belə onlardan məqsədin uğurla reallaşdırılmasında səmərəli istifadə olunur.

* Düşünülmüş siyasət dünyada baş verən proseslərin diqqətlə izlənilməsi, mümkün nəticələrin irəlicədən nəzərə alınması, baş verə biləcək yeni situasiyada gərəkli gedişlərə hazır variantların mövcudluğudur.

* Düşünülmüş siyasət ən əvvəl yüksək bilik, zəngin təcrübə, analitik təfəkkür, çeviklik və rasionallıq tələb edir.

**Biz İlham Əliyevin Azərbaycana iyirmi illk rəhbərliyi dövründə belə bir düşünülmüş siyasətin canlı şahidlərinə çevrildik!**

*** Azərbaycan heç zaman "qəfləti hadisələr"dən çıxılmaz vəziyyətə düşmədi!**

Çünki hər zaman gözlənilməzliklərə hazır oldu!

* *Azərbaycan heç zaman tutduğu siyasi xətti dəyişmədi, məqsədə doğru gedən yolda büdrəmələrə imkan vermədi!*

Çünki bütün situasiyaları çox-çox qabaqcadan görməyi və nəzərə almağı bacardı!

**Budur Azərbaycanı güclü və nüfuzlu dövlətə çevirən!**

**Budur Azərbaycanı Cənubi Qafqazda söz sahibi edən!**

**Budur Azərbaycanı dünyada sevdirən, ona etibarlı tərəfdaş, nüfuzlu əməkdaş adını qazandıran!**

❖ ❖ ❖

Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsində uduzmağımız təkcə Birinci Qarabağ müharibəsində məğlub olaraq 20 faiz ərazi itkisi ilə nəticələnməmişdi.

*Düşmənlərimiz Azərbaycandan torpaq qoparmağa uzun müddət və hərtərəfli hazırlaşmış, havadarlarının köməyindən gen-bol bəhrələnmiş, irəlicədən xeyli "ideoloji hazırlıq" aparmışdılar.*

Hələ səksəninci illərdə SSRİ yaşayırdı, xaricə də, xarici mətbuat səhifələrinə və televiziya kanallarına da ümumittifaq qurumları vasitəsilə çıxış mümkün idi.

Ermənilərin imkanları isə bambaşqaydı.

Əvvəla, Qorbaçov və arvadı tərəfindən onlara lazımi dəstək verilirdi.

İkincisi, hətta sovet dövründən belə erməni kilsəsi və digər vasitələrlə xaricdəki erməni diasporları ilə sərbəst əlaqə saxlayırdılar.

Üçüncüsü, sovetin mərkəzi qəzetləri, xaricə çıxışı olan informasiya agentlikləri və mərkəzi televiziya kanalları ermənilərlə sıx əməkdaşlıq edir, onların bütün yalan və böhtanlarını yazır və yayırdılar.

*İlkin mərhələdə ermənilər özlərini ictimai rəyə "vəhşi", "qaniçən" Azərbaycan xalqı tərəfindən hüquqları tapdalanan, dilənçi vəziyyətinə salınan, blokadaya alınaraq sıxışdırılan "zavallı millət", "məzlum xalq" kimi təqdim edə bildilər.*

**Naxçıvana gedən dəmir yol xəttini kəsərək muxtar respublikada yaşayan əhalini blokadaya saldıqları halda ABŞ-dəki erməni diasporu vasitəsilə ABŞ Senatını azərbaycanlılar tərəfindən blokadaya alındıqlarına inandıraraq Azadlığı Müdafiə Aktına 907-ci düzəlişin qəbuluna nail oldular.**

Bir atalar məsəlində deyildiyi kimi: "Adımı sənə qoyum, səni də yana-yana qoyum!"

ABŞ tərəfindən Azərbaycana birbaşa yardımı qadağan edən bu düzəliş hələ də ləğv edilməyib.

*Cənab İlham Əliyev həm AŞ PA-da Azərbaycan Milli Məclisinin deputat qrupuna rəhbərlik etdiyi müddətdə, həm də prezidentliyi dövründə erməni yalanlarının ifşası və əsl həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması sahəsində çox inadlı, ardıcıl və səmərəli işlər gördü.*

**Prezident İlham Əliyevin ən böyük xidmətlərindən biri də Azərbaycanı və Azərbaycan xalqını dünyaya yeni imicdə, olduğu kimi təqdim etməsi və tanıtmasıdır.**

*Bundan ötrü bir çox vasitədən istifadə etdi:*

* Azərbaycan cəmiyyətinin demokratikləşdirilməsi, insan hüquq və azadlıqlarının qorunması, mətbuat və söz azadlığının təmini, vətəndaş cəmiyyətinin formalaşdırılması, azad və demokratik seçkilərin keçirilməsi sahəsində görülən işlər və uğurlar beynəlxalq qurum və təşkilatlara çatdırıldı;

* "Hücum diplomatiyası" tətbiq olunaraq erməni yalanlarının ifşasında mühüm işlər görüldü;

* Azərbaycan I Avropa Oyunlarının təşəbbüsçüsü və təşkilatçısı olaraq yüksək standartlar səviyyəsində idman oyunlarını keçirməklə öz qapılarını dünyaya açdı;

* Uğur və nailiyyətlərini, qısa zamanda gördüyü möhtəşəm işləri ortaya qoydu;

* IV İslam Həmrəyliyi Oyunlarına da evsahibliyi etməklə beynəlxalq idman yarışlarını mütəşəkkil qaydada təşkil etməyi bacaran "idman dövləti" imicini qazandı!

* Hazırda dünya üzrə yarım milyard tamaşaçısı olan "Formula-1" yarışları yeddi ildir ki, paytaxt Bakıda keçirilir, azarkeşlər həmin yarışları izləməklə həm də müasir Azərbaycanla tanışlıq imkanı qazanırlar;

* Turizmin inkişafı təkcə gəlir gətirmir, həm də ölkəmizə gələn əcnəbi qonaqlar müstəqillik dövründə görülən işlərlə, xalqımızın adət-ənənələri, unikal mətbəxi, dini tolerantlığı ilə tanış olur, sülhpərvər və mehriban azərbaycanlıları gözləri ilə görürlər;

* Bakıya gələn turistlər İlham Əliyevin yenidən tikib-qurduğu paytaxtla bərabər, əmin-aman, təhlükəsiz, səmimi və gülərüz insanların yaşadığı bir məkanla da tanış olurlar.

❖ ❖ ❖

**Azərbaycan Prezidenti İlham Əliyevin ən mühüm uğurlarından biri beynəlxalq təşkilatlara rəhbər seçilməsi, onlara rəhbərliyi dövründə yeni, daha müasir və fərqli siyasət yürütməsi, həmin qurumların nüfuzunu yüksəltməsi, fəaliyyətlərini gücləndirərək onlara yeni nəfəs verməsidir.**

İrəlicədən qeyd edək ki, cənab İlham Əliyevin beynəlxalq qurumlara rəhbərliyi zamanı atdığı uzaqgörən və cəsarətli addımlar onun müasir dünya siyasətini dərindən bildiyinin bir daha təsdiqinə çevrildi.

*İlham Əliyev xaraktercə güclü, iradəli, cəsarətli və döyüşkən bir insandır!*

*Sözünü deməyi, mövqeyini sonadək və qətiyyətlə müdafiə etməyi yaxşı bacarır.*

Azərbaycan 2011-ci il oktyabrın 24-də 155 dövlətin dəstəyi ilə BMT Təhlükəsizlik Şurasına qeyri-daimi üzv seçildi.

Əslində, bu həm də Azərbaycanın beynəlxalq nüfuzunun və hörmətinin növbəti təsdiqi idi.

**İlham Əliyev təşkilatın iclasına sədrliyi dövründə bu yüksək tribunadan təkcə Azərbaycanın maraqlarını, erməni yalanlarının ifşası və əsl həqiqətlərin dünyaya çatdırılması vasitəsi kimi istifadə etmədi...**

*Dünyada baş verən mənfi proseslərdən, inkişaf etməkdə olan ölkələrin problemlərindən, bəşəriyyəti gözləyən təhlükələrdən söhbət açdı, onların qarşısının alınması, köməyə ehtiyacı olan ölkələrə yardım göstərilməsi üçün səmərəli təkliflər verdi.*

Azərbaycan Prezidenti BMT-nin tribunasından istifadə edərək BMT-də islahatlar aparılmasının vacibliyini, onun veto hüququna malik daimi üzvlərinin sayının artırılmasının, qəbul etdiyi qətnamələrin icrasına nail olması mexanizminin hazırlanması zamanının çatdığını da göstərdi və əsaslandırdı.

Onun bu mövqeyi müstəmləkəçilik qalıqlarından əziyyət çəkən, güclü dövlətlərin istismarına məruz qalan, daim köməyə ehtiyac duyan dövlətlər tərəfindən yüksək qiymətləndirilərək bəyənildi, Azərbaycana rəğbət bəsləyənlərin sayını əhəmiyyətli dərəcədə artırdı.

**İlham Əliyev həm də birləşdirici liderdir, dövlətlər və dövlət başçıları arasında xoş münasibət, dostluq əlaqələri yaratmağı bacarır.**

*Onun İslam Əməkdaşlıq Təşkilatına (İƏT) rəhbərliyi zamanı bu keyfiyyətlərinin bir daha şahidi olduq.*

İslam ölkələri dünyanın əsas neft istehsalçıları və ixracatçıları sayılırlar.

Strateji məhsul olan neft və təbii qaz dünya iqtisadiyyatına, deməli, həm də dolayısı yolla dünya siyasətinə təsir göstərə bilir.

Odur ki, aparıcı dövlətlər islam dövlətləri ilə münasibətlərə xüsusi diqqət yetirirlər, onları öz təsirləri altında saxlamağa çalışırlar.

*Bu məqsədlə "parçala, hökm sür" siyasətinin yeni variantlarını tətbiq edirlər, "ərəb baharı" və "rəngli inqilab"lar törədirlər.*

*Nəticədə müsəlman dövlətlərini bir-birinə qarşı qoyur, aralarına düşmənçilik toxumu səpir, bir mövqedən çıxış etmələrinə, birgə olmalarına imkan vermirlər.*

Hətta bir-biri ilə müharibə edən, müharibə vəziyyətində olan müsəlman dövlətləri də vardır!

**İlham Əliyevin İƏT-ə rəhbərliyi dövründə yürütdüyü siyasətin mahiyyəti birlikdə olmağa, keçmişdəki narazılıq və inciklikləri arxada qoyaraq irəliyə baxmağa, maraqları uzlaşdırmaqla əməkdaşlıq əlaqələri qurmağa xidmət edirdi.**

Müəyyən uğurlu nəticələr də oldu.

Azərbaycan ərəb dövlətləri ilə əməkdaşlığa, onlarla ticarət əlaqələrinin genişləndirilməsinə, qarşılıqlı investisiya yatırılmasına xüsusi diqqət yetirir. Son illər bu sahədə xeyli irəliləyiş baş vermişdir.

Türk Dövlətləri Təşkilatının (ilkin adı Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurası olub) əsası hələ 1992-ci ildə türkdilli dövlətlərin liderləri tərəfindən qoyulmuşdu.

Amma işlək qurum deyildi.

*3 oktyabr 2009-cu ildə isə Azərbaycan, Türkiyə, Qazaxıstan və Qırğızıstan tərəfindən Naxçıvanda imzalanan müqavilə əsasında beynəlxalq təşkilata çevrildi.*

**Uzun müddət fəaliyyəti hiss olunmayan bu təşkilat Azərbaycan Prezidenti İlham Əliyevin və Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın birgə səyi ilə işlək və səmərəli fəaliyyət göstərən bir quruma çevrildi.**

Təşkilatın yeni mərhələyə qədəm qoyması əsasən 2021-ci ildə İstanbul Zirvə görüşü ilə başlanır. Bu tədbirdə təşkilatın adı dəyişdirilərək Türkdilli Dövlətlər Təşkilatı (TDT) qoyuldu və Türkmənistan quruma müşahidəçi üzv kimi qoşuldu.

Bu toplantıda TDT-nin Ağsaqqallar Şurası yaradıldı və Türk İnvestisiya Fondunun təşkili məsələsi irəli sürüldü.

800 milyard dollarlıq xarici ticarət həcmi, 200 milyondan çox əhalisi, 5 milyon kvadratkilometr ərazisi, 8 dövlətdən ibarət olan bu təşkilatın üzvləri arasındakı ticarət cəmi 24 milyard dollar təşkil edir.

**Azərbaycan Prezidenti İlham Əliyevin uzunmüddətli və gərgin fəaliyyəti sayəsində tezliklə işə düşəcək Orta dəhliz təşkilatdaxili əlaqələrin güclənməsinə, ticarət həcminin yüksəlməsinə, qarşılıqlı faydalanma əmsalının artırılmasına imkan yaradacaqdır.**

14 yaşlı bu təşkilat məqsəd və prinsiplərinə uyğun olaraq bir sıra daxili qurumlar - Türkdilli Ölkələrin Parlament Assambleyası (Türk PA), Beynəlxalq Türk Akademiyası, Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fondu, Türkdilli Dövlətlərin Ticarət və Sənaye Palatası və Türk Biznes Şurasını yaratmaqla əməkdaşlığın yeni formalarından səmərəli istifadə edir.

*Fəaliyyətinin yeni mərhələsinə qədəm qoymuş bu qurumun dünya siyasətinə təsir imkanlarını yüksək qiymətləndirən cənab İlham Əliyev Azərbaycanın üzv ölkələrlə əlaqələrinin bütün sahələrdə möhkəmləndirilməsini xarici siyasətimizin prioritetlərindən biri kimi göstərir.*

TDT-nin Səmərqənddə keçirilən IX Zirvə görüşündəki çıxışında İlham Əliyev əməkdaşlığın vacibliyinə toxunaraq demişdir: *"Türk dünyası 200 milyondan çox insanın yaşadığı geniş bir coğrafiyanı əhatə edir və böyük iqtisadi potensiala, enerji resurslarına, nəqliyyat yollarına və müasir hərbi imkanlara malikdir. Türk dünyası böyük bir ailədir. Bir-birimizin milli maraqlarını nəzərə alaraq bundan sonra da qarşılıqlı dəstək və həmrəylik göstərməliyik. Siyasi, iqtisadi, ticari, mədəni, nəqliyyat, energetika, rəqəmsal, transformasiya, kənd təsərrüfatı, turizm sahələri ilə yanaşı, təhlükəsizlik, müdafiə, müdafiə sənayesi kimi sahələrdə də əməkdaşlığımızı fəallaşdırmalıyıq".*

**İlham Əliyev yeni tipli xarizmatik siyasətçi olmaqla yanaşı, hadisələrin gedişatını önləməyi, vaxtında atdığı addımlarla ölkəmizə qarşı yönəlik təhdid və təhlükələri irəlicədən zərərsizləşdirməyi də bacarır.**

Maraqlı bir məqam:

Özlərini lovğalıqla "məğlubedilməz xalq" adlandıran ermənilər müharibə başlayacağı təqdirdə daha çox havadarlarına və müdafiəçilərinə güvənirdilər.

Xüsusən KTMT-yə arxalanır və inanırdılar ki, müharibə başlayacağı halda bu qurum hadisələrə aktiv müdaxilə edərək onların əvəzinə döyüşəcək, torpaqları əbədi işğalda saxlamalarına kömək edəcəkdir.

44 günlük Vətən müharibəsi dövründə Hayastan dəfələrlə KTMT-ni köməyə çağıraraq məğlubiyyətlərinin qarşısını almağa cəhdlər etdi.

**Lakin İlham Əliyevin hələ illər öncə bu variantı görməsi, KTMT-yə üzv dövlətlərlə (onların bir qismi TDT-nin də üzvüdür) bağladığı müqavilələr, yaratdığı dostluq və sıx əməkdaşlıq münasibətləri hayların bu arzusunu ürəklərində qoydu!**

Azərbaycanla dostluq və əməkdaşlıq edən Özbəkistan, Qazaxıstan və Belarus ölkəmizə qarşı döyüşməyəcəklərini, hətta KTMT Qarabağ müharibəsinə müdaxilə etsə belə həmin hərbi əməliyyatlarda iştiraka öz ordularının qarışmasına yol verməyəcəklərini irəlicədən bəyan etdilər.

Digər bir məqam:

*Türk Dövlətləri Təşkilatına üzv dövlətlər nəinki heç bir halda Azərbaycana qarşı döyüşməyəcəklərini bəyan etdilər, üstəlik, 2021-ci il İstanbul Zirvə görüşündə Azərbaycan ərazilərinin işğaldan azad edilməsini və ərazi bütövlüyünün bərpasını təmin edərək türk birliyinə mühüm töhfə verən, habelə bölgədə davamlı sülh və sabitliyin əldə olunmasına yol açan tarixi qələbəyə görə Prezident İlham Əliyevi "Türk dünyasının ali ordeni" ilə təltif etdilər.*

*(Ardı var)*

**Bəxtiyar SADIQOV**

*Əvvəli qəzetin 3 oktyabr sayında*




# Xalqımızın 30 il əvvəlki seçimi dövlətimizin qüdrətinin əsasını təşkil etdi

Ulu Öndər Heydər Əliyev Azərbaycan xalqının ən ağır günlərində hakimiyyətə gələrək ölkəmizin dağılmaq təhlükəsini aradan qaldırdı. Uzun illər davam edən hərc-mərclik, idarəedicilərin səriştəsizliyi nəticəsində dövlətimiz uçurumun tam kənarında idi. Xalq hakimiyyətdən ümidini üzmüş, hakimiyyətdəkilər isə öz mənafelərini ümummilli mənafelərdən üstün tutaraq öz ambisiyalarının əsirinə çevrilmişdilər.



İqtidardakıların cəmiyyəti deqradasiyaya uğratmaq üçün bütün güclərini səfərbər etdiyi bir zamanda Ermənistanın ölkəmizə təcavüzü artmış, yüz minlərlə həmvətənlimiz öz dədə-baba yurdlarını tərk etməyə məcbur olmuşdu. Hakimiyyət uğrunda gedən mübarizədə bir-birini əvəz edən səriştəsiz rəhbərlərin yarıtmaz siyasəti nəticəsində Azərbaycan tarixinin ən ağır günlərini yaşamaqda idi. Baş verən özbaşınalıqlar, xaotik ictimai-siyasi durum, Ermənistanın təcavüzü və digər ağır hadisələrin yaşandığı bir zaman kəsiyi ölkəmizi parçalanmanın astanasına gətirmişdi.

Cənubdan və şimaldan artan separatçılıq cəhdləri getdikcə kəskinləşir və qarşıdurmanı, parçalanmanı qaçılmaz edirdi. Hakimiyyətdəkilər isə baş verənləri, ümumiyyətlə, qiymətləndirə bilmir, hər addımda daha yanlış bir qərar qəbul edərək ölkənin süqutunu tezləşdirirdilər. Vəzirov, Mütəllibov rejimi, Xalq Cəbhəsi-Müsavat cütlüyü tərəfindən daxili və xarici düşmənlərlə yaradılmış birbaşa təmaslar cəmi 2 yaşı olan gənc dövlətin sonunu gətirirdi. Xalqın belə ağır günlər yaşadığı bir dövrdə Azərbaycanı özü qədər sevən Ümummilli Lider Heydər Əliyev xilaskar missiyanı öz üzərinə götürdü. Xalqımız onu hakimiyyətə dəvət etdi və növbəti dəfə Azərbaycanı ağır günlərdən qurtarmaq və inkişaf yoluna çıxarmaq missiyasını ona həvalə etdi. Vətənini hər şeydən çox sevən Heydər Əliyev xalqını bu ağır günlərdə yalnız buraxmadı, onun təkidli tələbini qəbul etdi. Azərbaycan xalqı da Ulu Öndərin hər zaman ideyalarına sahib çıxdı. 3 oktyabr 1993-cü ildə elan edilmiş prezident seçkilərində qədirbilən Azərbaycan xalqı Heydər Əliyevə etimad göstərərək böyük səs çoxluğu ilə onu prezident seçdi. Məhz 3 oktyabr tarixdə Azərbaycan xalqının iradəsinin ifadəsi olan seçkilərdə xalq həm öz liderini seçdi, həm də tarixin bu anında öz xilaskarını müəyyən etdi. Prezident seçkiləri nəticəsində dövlətimizin süqutunun qarşısı alındı və seçkilərdən 7 gün sonra Azərbaycan xalqının qarşısında and içərək vəzifə səlahiyyətlərinin icrasına başlayan Ulu Öndərin bu addımı ilə ölkəmiz aydınlığa qədəm qoydu.

Ümummilli Lider Heydər Əliyev andiçmə mərasimindəki nitqində bildirdi ki: "Bu gün mənim üçün tarixi, əlamətdar bir gündür. Mənə göstərilən bu böyük etimada görə Azərbaycan vətəndaşlarına, Azərbaycan xalqına hörmətimi, məhəbbətimi bildirir və əmin etmək istəyirəm ki, həyatımın sonuna qədər xalqıma sədaqətlə xidmət edəcək və bütün fəaliyyətimi Azərbaycan Respublikasının gələcək inkişafına sərf edəcəyəm. "Ulu Öndər ömrünün sonuna qədər bu anda sadiq qalaraq, xalqının qarşısında götürmüş olduğu öhdəliyə dönmədən riayət etdi.

Bizim üçün olduqca vacib olan tarixi dönüş nöqtəsində Ümummilli Liderin ilk atdığı addımlardan biri ölkəmizdə ictimai-siyasi sabitliyin təmin edilməsi oldu. Məhz həmin an üçün gündəlikdəki ilk prioritet məsələ baş verən qarşıdurmaların, hakimiyyətdaxili mübarizənin qarşısını almaq idi. Məhz bütün faktorlar bu hadisələrdən asılı idi, Ermənistana öz təcavüzkar siyasətini də uğurla həyata keçirməsinə imkan verən də belə hadisələr idi. Məhz 1991-1993-cü illər arasında hakimiyyətdə olanların səriştəsizliyi torpaqlarımızın işğalı ilə bərabər, Xocalı soyqırımını, Şuşa və Laçın hadisələrini özü ilə bərabər gətirmişdi. Nəticə etibarı ilə isə xalq olaraq ən ağır günləri keçirtməyə məcbur olmuşduq. 1993-cü ilin oktyabr ayında isə xalqın ümidləri yenidən dirçəldi və məhz andiçmə nitqindən sonra Ulu Öndər Heydər Əliyevin bütün sahələrdəki uğurlu islahatlarının şahidi olduq. İctimai-siyasi sabitliyi təmin etməklə bərabər, düşmənin işğalçı siyasətini dayandırıldı və nizami ordu yaradılması istiqamətində əməli addımlar atıldı. Sabitliyi təmin etmək məqsədilə ölkədə fəaliyyət göstərən müxtəlif silahlı qruplar zərərsizləşdirildi, günahkarlar cəzalandırılaraq ədalət bərpa edildi.

Hüquqi dövlətin yaradılması uğrunda gərgin iş aparan Ulu Öndər yeni qanunların qəbul edilməsi təşəbbüsü ilə çıxış etdi. Ölkədə baş verə biləcək bütün cinayətlərin qarşısının alınması istiqamətində tapşırıqlar verərək, daxildə təhlükəsizliyi tam təmin etdi. Ümummilli Lider öz çıxışlarında dövlət üçün ən vacib əlamətlərdən biri olan ədalət fenomeninə toxunaraq bildirirdi ki, "Dövlət iki şeydən sarsıla bilər: günahkar cəzasız qalanda və günahsıza cəza veriləndə". Məhz bu sözlər məhkəmə-hüquq sahəsində aparılan islahatların əsas hərəkətverici qüvvəsinə çevrildi. Ölkədəki sabitlik bərqərar olunduqdan və düşmənin hücumu dayandırıldıqdan sonra ölkəmiz üçün prioritet olan növbəti vacib məsələ Azərbaycanın inkişafı idi. Bu məqsədlə də Ulu Öndər xarici bazara çıxışı asanlaşdırmaq, ölkəmizə investisiya cəlb etmək məqsədi ilə xarici dövlətlərlə işgüzar əlaqələr qurdu. İnvestorların ölkəmizə cəlb edilməsində əsas məqsəd vətəndaşların rifah halının yüksəldilməsi idi. Olduqca çətin dövrlərdən keçən ölkəmizdə yüz minlərlə məcburi köçkünün evsiz qalması və müxtəlif problemlərin yeganə həllini yalnız sabitliyi təmin etməkdə və xalqın rifahını yüksəltməkdə görən Ulu Öndər bu istiqamətdə bütün addımları atırdı. "Əsrin müqaviləsi"nin imzalanması ilə ölkəmiz öz vacibliyini dünyaya nümayiş etdirdi, xarici investorlar və bu sahədə maraqlı olan dövlətlər Azərbaycanın yanında olmalarını açıq-aşkar şəkildə bəyan etdilər. Bununla da dahi lider xarici siyasət sahəsində qərbyönümlü diplomatiyanın əsasını qoydu. Bu siyasətin uğurlarını qısa zaman kəsiyində görməyə başladıq. Ulu Öndərin bütün beynəlxalq tribunalardan Ermənistan hakimiyyətinin təcavüzkar siyasəti, Azərbaycan torpaqlarının işğalı ilə bağlı verdiyi tam, hərtərəfli məlumatlar artıq xarici ölkələrin, beynəlxalq təşkilatların diqqətini çəkmişdir. Ermənistanın işğalını pisləyən və Azərbaycan ərazilərini tərk etməyi tələb edən müxtəlif bəyanatların və qətnamələrin əsasını xarici siyasətdəki qazanılan uğurlar təşkil edirdi. 1996-cı il dekabrın 2-4-də Portuqaliyanın paytaxtı Lissabon şəhərində ATƏT-in növbəti zirvə toplantısı keçirildi. Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizama salınmasının baza formulu məhz bu görüşdə müəyyən edildi. Ermənistan istisna olmaqla, ATƏT-in üzvü olan 53 Avropa ölkəsi Dağlıq Qarabağ probleminin həll edilməsində Azərbaycanın milli mənafelərini əks etdirən prinsipləri açıq şəkildə dəstəklədi.

Məhz belə taleyüklü məsələlərin həllində Azərbaycan gəncliyinin rolunu unutmayan Ulu Öndər tez-tez onlarla görüşür, gəncləri ictimai-siyasi həyatda fəal iştiraka dəvət edirdi. Ulu Öndər gənclər siyasətinin əsasını qoyaraq, onların elm, bilik əldə etmələrinin vacibliyindən bəhs edər, müxtəlif bacarıqların inkişafına dövlətimiz tərəfindən tam dəstək verilməsi üçün bütün addımları atardı. Dünyada ilk dövlətlərdən biri olaraq Azərbaycan Ümummilli Lider Heydər Əliyevin təşəbbüsü ilə 2 fevral 1996-cı ildə Gənclər Forumu keçirdi. Gənclərimizə həsr edilmiş bu forumda həm də Azərbaycan gənclər siyasətinin əsas cizgiləri müəyyən edildi.

Ulu Öndər çıxışında "Gənclərimizin əsas vəzifəsi özünü müstəqil Azərbaycan Respublikasının inkişafına həsr etməkdən, müstəqil Azərbaycan Respublikasının yaşamasına və əbədi olmasına həsr etməkdən ibarət olmalıdır" deyərək, gənclərimizin milli-mənəvi dəyərlərimizə bağlı olaraq yetişməsindən və gənclərimizin dövlətə verdiyi böyük dəstəkdən söz açdı. Daha sonra Gənclər Gününün təsis edilməsi ölkəmizdə gənclər siyasətinə verilən yüksək dəstəyin nümunəsi oldu.

Ümummilli Lider Heydər Əliyevin dövlətçilik ideyaları altında yetişmiş Azərbaycan gəncliyi də öz növbəsində üzərinə düşən tarixi missiyanın öhdəsindən Vətən müharibəsində ləyaqətlə gəldi. Onlar Prezidentin, Müzəffər Ali Baş Komandanın rəhbərliyi altında rəşadətli Azərbaycan Ordusunun tərkibində ön cəbhədə döyüşdülər, eləcə də informasiya müharibəsində gərgin əmək sərf etdilər. Nəticədə tarixi Azərbaycan torpaqları düşmən işğalından azad edilərək, suverenliyimiz bərqərar edildi. Bu gün üçrəngli Azərbaycan bayrağı Vətən göylərində böyük məğrurluqla dalğalanır.

Azərbaycan öz ərazi bütövlüyünü bərpa, suverenliyini bərqərar və 30 ilə yaxın müddətdə işğalda qalmış torpaqlarını düşməndən azad etmiş qalib dövlətdir. Ölkəmiz qüdrətini nümayiş etdirərək, yalnız regionun deyil, eləcə də dünyanın ən güclü dövlətlərindən biri olmasını təsdiq etdi.

Məhz Ulu Öndərin görmək istədiyi qüdrətli Azərbaycan bugünküdür.

***Adil ƏLİYEV,***
***Milli Məclis Sədrinin müavini***

# *Salim bin Məhəmməd əl-MALİK:* "ICESCO Azərbaycanla əməkdaşlığı genişləndirməkdə maraqlıdır"

Oktyabrın 3-də Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov İslam Dünyası Təhsil, Elm və Mədəniyyət Təşkilatının (ICESCO) baş direktoru Salim bin Məhəmməd əl-Malik ilə görüşüb.



Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildiriblər ki, görüşdə Azərbaycan və ICESCO arasında əməkdaşlıq məsələləri, habelə bölgədə mövcud vəziyyət müzakirə olunub.

Nazir Ceyhun Bayramov ölkəmizin müstəqilliyini bərpa etdiyi ilk illərdən mədəniyyətlərarası dialoqun təşviqi, irqi ayrı-seçkilik, islamofobiya kimi təhdidlərlə mübarizə sahələrində ICESCO ilə yaxından əməkdaşlıq etdiyini diqqətə çatdıraraq, bu xüsusda, yaxın zamanda ICESCO-nun ölkəmizdə regional mərkəzinin açılmasının münasibətlərin daha da inkişaf etdirilməsinə töhfə verəcəyinə dair inamını ifadə edib. Multikulturalizm və tolerantlıq modeli ilə dünyada tanınan ölkəmizin mədəniyyət beşiyi olan Şuşa şəhərinin 2024-cü il üzrə ICESCO-nun "İslam dünyasının mədəniyyət paytaxtı" seçildiyi məmnunluqla qeyd edilib.

Postmünaqişə dövründə bölgədə mövcud vəziyyət, Azərbaycanın sülh və quruculuq səyləri barədə qarşı tərəfi ətraflı məlumatlandıran nazir Ceyhun Bayramov ölkəmizin 30 ilə yaxın davam edən münaqişə dövründə Ermənistan tərəfindən dağıdılan dini və mədəni irsimizin bərpası istiqamətində əməli addımlar atdığını diqqətə çatdırıb. Münaqişə zamanı, habelə münaqişədən sonrakı dövrdə üzləşdiyimiz ikili standartlar, keçmiş münaqişəyə dini çalarlar verilməsi cəhdlərinin qəbuledilməzliyi, habelə bu kimi addımların bölgədə sülh və sabitliyə töhfə vermədiyi vurğulanıb.

Bütün mövcud çətinliklərə və çağırışlara baxmayaraq, Azərbaycanın Ermənistanla normallaşma və sülh gündəliyinin, habelə Qarabağ bölgəsində yaşayan yerli erməni sakinlərin reinteqrasiya prosesinin irəlilədilməsində qərarlı olduğu diqqətə çatdırılıb. Xüsusilə görülən antiterror tədbirləri nəticəsində bölgədə mövcud qeyri-qanuni erməni silahlı qüvvələrinin buraxılması və tərk-silah prosesinin sülh və reinteqrasiya səylərinə təkan verdiyi qeyd olunub.

Baş direktor Salim bin Məhəmməd əl-Malik Azərbaycana səfərindən məmnunluq duyduğunu, ötən gün Prezident İlham Əliyevlə və birinci xanım Mehriban Əliyeva ilə keçirdiyi görüş zamanı faydalı fikir mübadiləsi aparıldığını diqqətə çatdırıb. ICESCO-nun Azərbaycan ilə əməkdaşlığı genişləndirməkdə maraqlı olduğu, habelə bundan sonra da əlaqələrin gücləndirilməsi istiqamətində səylər göstərilməsinin vacibliyi qeyd edilib.

Görüş zamanı həmçinin qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

# Milli Məclis "Dövlət ehtiyatları haqqında" qanun layihəsini müzakirə edəcək



Oktyabrın 3-də Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin iclası keçirilib. Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, iclasda 30 il əvvəl - 1993-cü il oktyabrın 3-də Ulu Öndər Heydər Əliyevin Azərbaycan Prezidenti seçilməsinin Azərbaycan xalqının həyatında əlamətdar tarix olduğu bildirilib və bununla da ölkəmizin bugünkü uğurlarının təməllərinin qoyulduğu vurğulanıb.

Sonra komitə sədri Tahir Mirkişili iclasın gündəliyini təqdim edib. Bildirib ki, gündəliyə 2 məsələ daxil edilib və birinci məsələ "Dövlət ehtiyatları haqqında" qanun layihəsinin birinci oxunuşda müzakirəsidir.

Tahir Mirkişili qeyd edib ki, son illər dünyada baş verən kataklizmlər iqtisadi təhlükəsizliyin tərkib hissəsi olan ərzaq təhlükəsizliyinin təminatı üçün dövlətin əlavə funksiyaları üzərinə götürmək zərurətini yaradıb. Ölkəmizdə ərzaq təhlükəsizliyinin təmini üçün dövlət ehtiyatlarının və ərzaq balansının yaradılması istiqamətində atılan mühüm addımlardan söz açan komitə sədri 4 fəsil 14 maddədən ibarət yeni qanun layihəsində dövlət ehtiyatlarının yaradılması və ərzaq balansının təmin edilməsi üçün müasir və mütərəqqi tənzimləmələrin təsbit olunduğunu vurğulayıb. Komitə sədri qanun layihəsi ilə bağlı ətraflı məlumat vermək üçün Dövlət Ehtiyatları Agentliyinin İdarə Heyətinin sədri Səbuhi Sadıqova söz verib.

Agentliyin sədri Səbuhi Sadıqov əvvəlcə dövlət ehtiyatları sahəsində mövcud qanunvericilik, effektiv tənzimləmə sisteminin təmin edilməsi üzrə dövlət başçısı tərəfindən verilən tapşırıqlar və atılan addımlar barədə məlumat verib. O, müzakirəyə çıxarılan qanun layihəsinin ölkəmizdə dövlət ehtiyatları sahəsini tənzimləyən vahid normativ hüquqi aktın, bu sahə üzrə vahid konseptual yanaşmanın qəbul olunması zərurətindən irəli gələrək hazırlandığını bildirib. Layihənin ümumi strategiyasından bəhs edən agentlik sədri sənəddə dövlət ehtiyatlarının strateji, fövqəladə və səfərbərlik olaraq 3 bloka bölündüyünü bildirib, onların əhatə dairəsi, strukturu barədə danışıb. O, deputatlara dövlət ehtiyatlarının təyinatı və layihədə təsbit olunan digər tənzimləmə mexanizmləri barədə məlumat verib. Diqqətə çatdırıb ki, layihənin məqsədi dövlət ehtiyatlarının dayanıqlılığını və onlardan düzgün istifadəni təmin etməkdir.

Layihənin müzakirəsində komitə sədri Tahir Mirkişili, komitənin sədr müavini Əli Məsimli, komitə üzvləri Vahid Əhmədov, Ziyad Səmədzadə, Məzahir Əfəndiyev, Məşhur Məmmədov, Mahir Abbaszadə, Vüqar Bayramov, İqbal Məmmədov və Aydın Hüseynov çıxış ediblər. Deputatlar sənəddə nəzərdə tutulan dövlət-özəl sektor əməkdaşlığının mexanizmləri, dövlət ehtiyatlarının hüquqi statusu, strukturu və dinamikası, yerli məhsulların tədarük şərtləri və qiymətləri kimi məsələlərlə bağlı fikirlərini bildiriblər, rəy və təkliflərini səsləndiriblər.

Deputatların suallarına və qaldırdıqları məsələlərə agentliyin sədri Səbuhi Sadıqov aydınlıq gətirəndən sonra "Dövlət ehtiyatları haqqında" qanun layihəsi birinci oxunuşda baxılmaq üçün Milli Məclisin plenar iclasına tövsiyə olunub.

Sonra deputatlar "Dövlət ehtiyatları haqqında" qanun layihəsinə uyğunlaşdırma məqsədi ilə hazırlanan "Antiinhisar fəaliyyəti haqqında", "İstehlakçıların hüquqlarının müdafiəsi haqqında", "Mülki müdafiə haqqında", "Taxıl haqqında", "Milli təhlükəsizlik haqqında", "Dövlət sirri haqqında", "Azərbaycan Respublikasında səfərbərlik hazırlığı və səfərbərlik haqqında" və "Qiymətli metallar və qiymətli daşlar haqqında" qanunlarda dəyişiklik edilməsi barədə qanun layihəsini də nəzərdən keçirərək birinci oxunuşda baxılmaq üçün Milli Məclisin plenar iclasına tövsiyə ediblər.

***"Azərbaycan"***

# Müharibə veteranlarına dövlət qayğısının göstəricisi

Oktyabrın 3-də Milli Məclisin Elm və təhsil komitəsinin videokonfrans formatında iclası keçirilib.



Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, iclası açan komitənin sədri Bəxtiyar Əliyev 3 oktyabr tarixinin Azərbaycan xalqının həyatında əlamətdar hadisə kimi yadda qaldığını deyib, Ulu Öndər Heydər Əliyevin 30 il əvvəl həmin gün hakimiyyətə qayıdışının Azərbaycanın qurtuluşu və bugünkü uğurlarımızın təməli olduğunu bildirib. O qeyd edib ki, bu gün Ulu Öndərin siyasəti Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir.

Daha sonra komitənin sədri gündəliyə 2 məsələnin daxil edildiyini bildirib. İlk məsələnin birinci oxunuşda olan "Ödəniş xidmətləri və ödəniş sistemləri haqqında" Azərbaycan Respublikasının 2023-cü il 14 iyul tarixli 987-VIQ nömrəli Qanunun icrası ilə əlaqədar bəzi qanunlarında dəyişiklik edilməsi barədə, ikinci məsələnin ikinci oxunuşda olan "Peşə təhsili haqqında" Qanunda dəyişiklik edilməsi barədə qanun layihələri olduğunu qeyd edən komitə sədri onlar haqqında məlumat verib.

"Ödəniş xidmətləri və ödəniş sistemləri haqqında" qanunda dəyişiklik edilməsi barədə qanun layihəsi (birinci oxunuş) haqqında məlumat verən komitə sədri təklif edilən dəyişikliklərin mahiyyət etibarilə ölkəmizdə fəaliyyət göstərən ödəniş xidmətləri və ödəniş sistemlərinin təkmilləşdirilməsini nəzərdə tutduğunu bildirib. O, qanunlara təklif olunan dəyişikliklərlə bağlı fikirlərini səsləndirib, sənəddə qeyd olunan "Elektron imza və elektron sənəd haqqında" Azərbaycan Respublikası Qanununa təklif olunan dəyişiklikləri şərh edib.

Gündəliyin ikinci məsələsi olan "Peşə təhsili haqqında" qanunda dəyişiklik edilməsi barədə qanun layihəsi (ikinci oxunuş) ilə bağlı danışan komitə sədri Bəxtiyar Əliyev qanun layihəsinin Azərbaycan Prezidenti tərəfindən qanunvericilik təşəbbüsü qaydasında parlamentə daxil olduğunu diqqətə çatdırıb. Prezident İlham Əliyevin göstərişləri və sərəncamları əsasında bu kateqoriyadan olan vətəndaşlara göstərilən dövlət qayğısından danışan komitə sədri nəzərə çatdırıb ki, Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda döyüş əməliyyatlarında iştirak etmiş şəxslərə sosial dəstək tədbirləri dövlət siyasətinin əsas prioritetlərindən olduğu üçün təklif edilən dəyişiklikdə məhz bu kateqoriyadan olan "Müharibə veteranı" adı almış şəxslərin də dövlət peşə təhsili müəssisələrində ödənişli əsaslarla təhsil aldıqları müddətdə təhsil haqlarının dövlət büdcəsinin vəsaiti hesabına ödənilməsi nəzərdə tutulur.

Qanun layihələrinin müzakirələrində komitə sədrinin müavini Musa Qasımlı, deputatlar Etibar Əliyev, Ceyhun Məmmədov və Anar İsgəndərov çıxış edərək sənədlərdə təklif olunan dəyişiklikləri dəstəkləyərək qeydlərini bildiriblər.

Deputatlar müzakirəyə çıxarılan qanun layihələrini baxılmaq üçün Milli Məclisin plenar iclasının müzakirəsinə tövsiyə ediblər.

***"Azərbaycan"***

# Sumqayıt şəhərinin inzibati ərazisi genişləndirilir

Oktyabrın 3-də Milli Məclisin Regional məsələlər komitəsinin növbəti iclası keçirilib. Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, iclasda ölkə Prezidenti tərəfindən qanunvericilik təşəbbüsü qaydasında parlamentə təqdim olunmuş "Bakı şəhəri Binəqədi rayonunun, Sumqayıt şəhərinin və Abşeron rayonunun sərhədlərinin müəyyənləşdirilməsi haqqında" qanun layihəsi müzakirə edilib.



Komitənin sədri Siyavuş Novruzov 3 oktyabr tarixinin Azərbaycan xalqının həyatında əlamətdar hadisə kimi yadda qaldığını söyləyib. O, Ulu Öndər Heydər Əliyevin 30 il əvvəl həmin gün hakimiyyətə qayıdışının Azərbaycanın qurtuluşu və bugünkü uğurlarımızın təməli olduğunu deyib. O bildirib ki, bu gün Ulu Öndərin siyasəti uğurla davam etdirilir, Azərbaycanın müstəqil, suveren, demokratik dövlət kimi inkişaf etdirilməsi istiqamətində əməli addımlar atılır.

Qanun layihəsi barədə məlumat verən komitə sədri diqqətə çatdırıb ki, Bakı şəhəri Binəqədi rayonunun, Sumqayıt şəhərinin və Abşeron rayonunun sərhədlərində bu qanuna əlavə edilmiş xəritələrə uyğun olaraq, bir sıra dəyişikliklər edilib. Dəyişikliklərə əsasən, Bakı şəhəri Binəqədi rayonunun Binəqədi qəsəbə inzibati ərazi dairəsi tərkibindəki Binəqədi qəsəbəsinin ərazisindən və Abşeron rayonunun inzibati ərazisində yerləşən müəyyən torpaq sahələrinin Sumqayıt şəhərinin inzibati ərazisinə verilməsi nəzərdə tutulub.

İclasda komitənin sədr müavini Elşən Musayev, üzvləri Cavid Osmanov, Emin Hacıyev, Aqil Məmmədov, Səttar Möhbalıyev çıxış edərək, Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin hakimiyyətə qayıdışı günü ilə əlaqədar ürək sözlərini söyləyiblər. Deputatlar ölkəmizin bugünkü qələbələrinin məhz həmin əlamətdar günün davamı olduğunu bildiriblər. Çıxışlarda dövlət başçısı İlham Əliyevin rəhbərliyi ilə müasir çağırışlara uyğun olaraq Ümummilli Liderin qoyduğu irsin müvəffəqiyyətlə davam etdirilməsindən, ölkənin ərazi bütövlüyünün tam bərpa olunduğundan, suverenliyimizin təmin edildiyindən bəhs edilib.

Sonra deputatlar qanun layihəsi barədə fikirlərini açıqlayaraq, son illər Sumqayıt şəhərinin daha da inkişaf etdirilməsi istiqamətində əhəmiyyətli addımların atıldığı, təqdim olunan sənədin məqsədəmüvafiq olduğunu deyiblər.

Müzakirələrin sonunda qanun layihəsi Milli Məclisin plenar iclasına tövsiyə olunub.

***"Azərbaycan"***

# Azərbaycan həm də kosmos ölkəsidir

Ulu Öndər Heydər Əliyevin iştirakı ilə 1973-cü ildə Bakıda keçirilən 24-cü Beynəlxalq Astronavtika Konqresinin əlli ildən sonra yenidən ölkəmizin paytaxtında keçirilməsi tarixin təkrarlanması ilə bərabər, Azərbaycana göstərilən etimadın, qayğı və diqqətin ifadəsidir. 100-dən artıq ölkəni təmsil edən və 5000-dən çox iştirakçının qatıldığı bu tədbir yüksək beynəlxalq nüfuza malikdir. Azərbaycan on ildən çoxdur ki, kosmik ailənin üzvi kimi səmərəli fəaliyyət göstərir. Bu gün ikisi telekommunikasiya, biri isə Yer səthinin müşahidəsi peykinə malik olan ölkəmiz kosmik sənayenin inkişafına böyük əhəmiyyət verir.



Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 74-cü Beynəlxalq Astronavtika Konqresinin açılış mərasimində çıxışında səsləndirdiyi fikirlər buna bir daha sübutdur. "Belə bir mühüm qlobal tədbirə evsahibliyi etmək bizim üçün şərəfdir" fikrində olan dövlətimizin rəhbəri bildirmişdir ki, Bakıda keçirilən bu konqres ölkəmizin kosmik sənaye, müasir texnologiya və innovasiya sektorlarının inkişafına və onun müasirləşdirilməsinə mütləq yeni təkan verəcəkdir. Müasirləşdirilmə sözü bizim gələcəklə bağlı baxışımızı, gündəliyimizi və planlarımızı səciyyələndirir.

Prezident konqresin fəaliyyətinə böyük əhəmiyyət verməklə bərabər, müstəqillik dövründə Azərbaycanın keçdiyi yola, yürütdüyü siyasətə, beynəlxalq aləmlə əlaqələrin möhkəmləndirilməsində göstərdiyi səylərə, qazanılan uğurlara diqqəti cəlb etmiş və demişdir ki, "bizim səylərimiz hər zaman aydın, şəffaf və birmənalı olub və dostlar qazanmasına və əməkdaşlığın gücləndirilməsinə yönəlib. Beynəlxalq ictimaiyyətin fəal üzvü kimi Azərbaycan çoxsaylı siyasi, iqtisadi və regional inkişaf layihələrində iştirak edir".

Cənab İlham Əliyevin söylədikləri reallıqdır və dünya ölkələri bu fəaliyyəti yüksək qiymətləndirir. Dünyada BMT-dən sonra ikinci ən böyük - 120 ölkəni öz ətrafında birləşdirən beynəlxalq təşkilata - Qoşulmama Hərəkatına dörd il uğurla rəhbərlik etmək, İslam Əməkdaşlıq Təşkilatı ilə sıx əlaqələr yaratmaq, onun mühüm tədbirlərini keçirmək, Avropa İttifaqının 9 üzv dövləti ilə strateji tərəfdaşlıq haqqında bəyannamə imzalamaq, Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunun tədbirlərini keçirmək Azərbaycanın ali məqsədlərə xidmət etməsinin nümunəsi olmaqla bərabər, həm də onun dünyada artan nüfuzundan və iqtisadi inkişafından xəbər verir.

Öz torpaqlarını erməni təcavüzkarlarından xilas edən Azərbaycan qalib olmasına baxmayaraq, yenə də sülhün tərəfdarıdır. Xalqımız iqtisadi inkişafın, qurub-yaratmağın, dostluğun, əmin-amanlığın tərəfdarıdır. Bunu Azərbaycan Prezidenti öz çıxışında bir daha qeyd etmiş və bildirmişdir ki, "ölkə üzrə son 20 il ərzində ümumdaxili məhsul dörd dəfə, büdcə gəlirlərimiz 30 dəfədən çox, xarici ticarət dövriyyəsi on dəfədən çox artıb. Biz birbaşa xarici borcun həcmini azalda bildik və hazırda o, ümumdaxili məhsulun təxminən 10 faizini təşkil edir".

Azərbaycan ikinci dəfə Beynəlxalq Astronavtika Konqresinə evsahibliyi edir. Həqiqətən də, bu hər bir vətəndaşda qürur hissi oyadır. Çünki keçən əlli ildə Azərbaycan Ulu Öndərimiz Heydər Əliyevin qoyub-getdiyi bünövrə, tövsiyə etdiyi tapşırıqlar, siyasət sayəsində, cənab İlham Əliyevin düşünülmüş planları, həyata keçirdiyi proqramlar, layihələr əsasında tamamilə dəyişmiş, mədəniləşmiş, inkişaf etmiş və dünyanın tanınan dövlətlərindən birinə çevrilmişdir.

Bu gün Azərbaycan kosmosa yollar açır və daha böyük nailiyyətlər, qələbələr sorağındadır.

***Tahir RZAYEV,***
***Milli Məclisin Aqrar siyasət komitəsinin sədri***

# "Xəzri-2023" birgə taktiki təliminin məşqləri icra olunub



Azərbaycan və Qazaxıstanın Hərbi Dəniz Qüvvələrinin (HDQ) gəmilərinin və hərbi qulluqçularının iştirakı ilə ölkəmizdə keçirilən "Xəzri-2023" birgə taktiki təlimi davam edir.

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, əvvəlcə təlimin planına uyğun olaraq keçirilən brifinqdə iştirakçılara təhlükəsizlik qaydaları, yerinə yetiriləcək tapşırıqlar, onların icra ardıcıllığı və digər zəruri məlumatlar verilib.

Sonra hər iki ölkənin HDQ-nin şəxsi heyəti və gəmiləri ilə müxtəlif epizodlar üzrə tapşırıqlar məşq edilib, həmçinin onlar arasında döyüş uzlaşması həyata keçirilib.

Qeyd edək ki, təlim məşqlərinə cəlb olunan heyət qarşıya qoyulan tapşırıqları müvəffəqiyyətlə yerinə yetirib.

# Beynəlxalq Astronavtika Konqresinin plenar iclasında əməkdaşlıq və infrastruktur mübadiləsindən danışılıb



Oktyabrın 3-də 74-cü Beynəlxalq Astronavtika Konqresinin "Əməkdaşlıq və infrastruktur" adlı plenar iclası keçirilib.

AZƏRTAC xəbər verir ki, David Tomasın moderatorluğu ilə keçirilən tədbirdə Avstraliya Fəza Agentliyinin baş texnoloqu Aude Viqnelles, Kolorado Universitetinin Astrodinamik Araşdırmalar Mərkəzinin professoru Daniel Şeeres, NASA-nın baş texnoloqu A.C.Çarania, "Əlavə Dəyər Həlləri" şirkətinin kosmik rəhbəri vəzifəsində çalışan Ramon Blanko iştirak ediblər.

Plenar iclasda çıxış edənlər kosmik əlaqələrin daha dərindən öyrənilməsi, eyni zamanda bu sahədə qarşılıqlı əməkdaşlıqdan danışıblar. Beynəlxalq "Artemis" proqramının kəşfetmə missiyaları, kosmik elmlər və rəqəmsal kommersiya şirkətlərinin bu sahənin inkişafı üçün veriləcək dəstəyi haqqında müzakirələr aparılıb. Qeyd edilib ki, rəqəmsal kommersiya şirkətləri rabitə və naviqasiyadan tutmuş mobillik və enerji təchizatına qədər kommersiya xidmətləri sıralamasını təmin etmək niyyətindədir.

Qeyd edək ki, "Artemis 1" "Artemida" proqramı çərçivəsində kosmos uçuşu olan ekipajsız Ay orbiti missiyasıdır. "Orion" kosmik gəmisinin və "Space Launch System" buraxılış vasitəsinin ilk inteqrasiya olunmuş uçuş sınağıdır.

# 74-cü Beynəlxalq Astronavtika Konqresi sosial mediada trend olub

Azərbaycanın evsahibliyi etdiyi 74-cü Beynəlxalq Astronavtika Konqresi dünya ictimaiyyətinin diqqətindədir.

Bu barədə AZƏRTAC-a Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyindən bildirilib.

ABŞ-nin sosial şəbəkə monitorinqi və təhlili üzrə aparıcı proqramı "Talkwaker"in hesablamasına əsasən, tədbir #IAC2023 həştəqi ilə sosial media platformalarında trendə çevrilib.

Konqres həmçinin sosial şəbəkədə "top tədbirlər" siyahısına liderlik edir.

Xatırladaq ki, oktyabrın 2-də Azərbaycanda 74-cü Beynəlxalq Astronavtika Konqresi işə başlayıb. Bu nüfuzlu tədbirə Bakı ilk dəfə Ulu Öndər Heydər Əliyevin ölkəyə birinci rəhbərliyi dövründə - 1973-cü ildə evsahibliyi edib. 50 ildən sonra konqres yenidən Azərbaycanda keçirilir.

136 ölkədən 5300-dən çox nümayəndənin iştirak etdiyi beynəlxalq tədbir oktyabrın 6-dək davam edəcək.

# Beynəlxalq astronavtika konqresləri özlüyündə böyük və maraqlı konseptdir

## Azərbaycanda keçirilən növbəti konqres əvvəlkilərdən bir sıra üstünlükləri ilə fərqlənir




Azərbaycanda müasir texnologiyaların geniş tətbiqi, rəqəmsal inkişaf və kosmik sənaye quruculuğu sahəsində xeyli uğur əldə edilib. Ötən illər hərtərəfli dövlət dəstəyi ilə ölkədə kosmik sənaye üzrə müasir infrastruktur yaradılaraq informasiya təhlükəsizliyinin vacib komponenti olan kommunukasiya peykləri orbitə buraxılıb. Bununla xarici dövlətlərin peyklərindən asılılıq aradan qaldırılıb və peyk xidmətlərinin ixracına başlanılıb.

İndi peyk şəbəkəmiz ölkəmizin suverenliyinin qorunması ilə yanaşı, onun sosial-iqtisadi inkişafına da mühüm dəstək verir. Ölkəmiz uğurlu peyk layihələri sayəsində dünya kosmik ailəsinin bir üzvünə çevrilərək beynəlxalq kosmik icmada böyük nüfuz qazanıb. Kosmik sənaye və peyk xidmətləri sahəsində əldə edilmiş təcrübənin, formalaşmış yeni insan kapitalı və etibarlı tərəfdaş imicinin təzahürü olaraq Azərbaycan qapılarını 74-cü Beynəlxalq Astronavtika Konqresinin üzünə açıb. O bu haqqı 2019-cu ilin oktyabr ayında ABŞ-nin paytaxtı Vaşinqtonda Beynəlxalq Astronavtika Federasiyasının Baş Assambleyasına keçirilən seçkilər zamanı qazanıb. İlk dəfə 1973-cü ildə Bakıda keçirilən asrtronavtika konqresi 50 il sonra yenidən Bakıda fəaliyyətə başlayıb. Bunun böyük rəmzi mənası var. Belə nüfuzlu tədbirin Azərbaycada keçirilməsi ona dəlalət edir ki, ölkəmizdə kosmik sənayenin inkişafı Beynəlxalq Astronavtika Konqresi ilə əməkdaşlığın genişlənməsi üçün çox böyük imkanlar yaradıb.

Bu tədbirin Bakıda keçirilməsinin bir səbəbi də odur ki, artıq neçə illərdir Azərbaycanda informasiya və kommunikasiya texnologiyaları sahəsi prioritet sahə elan edilib. Mütəxəssilərin fikrincə, rabitə və informasiya texnologiyaları sahəsinin neft sektorundan sonra Azərbaycan iqtisadiyyatında ən inkişaf etmiş sahə olacağı gözlənilir. İnformasiya və kommunikasiya texnologiyalarının geniş tətbiqi ölkənin hərtərəfli inkişafına xidmət etməklə yanaşı, informasiya sahəsində milli təhlükəsizliyin təmin olunması baxımından da xüsusi əhəmiyyət daşıyır. 1950-ci ildən keçirilməyə başlayan konqresin yarım əsr sonra Azərbaycanda ikinci dəfə keçirilməsi o deməkdir ki, Azərbaycan on ildən artıqdır beynəlxalq kosmik ailənin fəal üzvünə çevrilib. Bu gün ikisi telekommunikasiya, biri isə Yer səthinin müşahidəsi peykinə malik olan Azərbaycan kosmik sənayenin inkişafını sürətlə davam etdirir. Həmin üç peyk azərbaycanlı mütəxəssislər tərəfindən idarə olunur və onlar təkcə Azərbaycana deyil, 45-dən artıq ölkəyə xidmət göstərir. Sözügedən konqresdə çıxış edən Prezident İlham Əliyev bu tədbirin ölkəmizdə keçirilməsinin kökündə məhz güclü iqtisadiyyatın dayandığını bildirdi: "Qonaqlarımızın əksər hissəsi Azərbaycana ilk dəfədir səfər edir, mən sizə bəzi rəqəmlərlə bağlı məlumat vermək istərdim. Hesab edirəm ki, həmin rəqəmlər Azərbaycanda son zamanlarda əldə olunmuş nailiyyətləri aydın şəkildə nümayiş etdirir. Beləliklə, son 20 il ərzində ümumi daxili məhsul dörd dəfə, büdcə gəlirlərimiz 30 dəfədən çox, xarici ticarət dövriyyəsi on dəfədən çox artıb. Biz birbaşa xarici borcun həcmini azalda bildik və hazırda o, ümumi daxili məhsulun təxminən 10 faizini təşkil edir. 2024-cü ilin sonuna qədər planlarımıza uyğun olaraq, onun həcmi ümumi daxili məhsulun təxminən 7-7,5 faizini təşkil edəcək. Azərbaycanın xarici valyuta ehtiyatları birbaşa xarici borcumuzu on dəfə üstələyir. Başqa sözlə, əgər lazım gələrsə, biz bütün borclarımızı bir neçə ay ərzində ödəyə bilərik. Biz çox müsbət sərmayə mühitini nəinki enerji, o cümlədən digər sektorlarda yaratmışıq. Beləliklə, son 20 il ərzindəki sərmayələrin ümumi həcmi 300 milyard ABŞ dollarından çoxdur və onlardan 190 milyard dolları qeyri-enerji sektoruna yatırılmışdır".

Konqresdə 100-dən artıq ölkədən gəlmiş 5 mindən çox nümayəndə iştirak edir ki, bu da indiyə kimi keçirilən digər konqreslərlə müqayisədə çox vacib göstəricidir. Onu da deyək ki, Beynəlxalq Astronavtika Akademiyası, Kosmos Hüquq üzrə Beynəlxalq İnstitutu və Kosmik Nəslin Məşvərət Şurası, eyni zamanda "premium" sponsor olan Çinin Astronavtika Cəmiyyəti, "platin" sponsor olan Səudiyyə Ərəbistanının Kosmik Agentliyi, "SpaceX" və Türk Kosmik Agentliyi, "qızıl" sponsor olan "Israel Aerospace Industries" şirkəti, Birləşmiş Ərəb Əmirliklərinin Muhammed Bin Rəşid Kosmik Mərkəzi, "gümüş" sponsorlar olan "Airbus", "Axiom Space", "Intesputnik", "ispace" kompaniyaları, Hindistanın Kosmik Tədqiqatlar Təşkilatı, Yaponiya Aerokosmik Tədqiqatlar Agentliyi, "Northrop Grumman", "Plan-S" və "Vast" şirkətləri və "bürünc" sponsorlar olan "Asgardia", "BlackSky", "Blue Origin", JGC Holdings Corporation", "Lockheed Martin" korporasiyaları konqresə davamlı dəstək olan tərəfdaşlardır. Bakı konqresi iştirakçıların təkcə sayına görə deyil, tərkib baxımından da əvvəlki tədbirlərdən üstündür. Üstünlükilərdən biri tədbirə təqdim edilən elmi məqalələrin sayının 3600-dək olmasıdır. Azərbaycanın elm adamları və tədqiqatçıları tərəfindən yazılan kosmosa və bəşəriyyətin xeyrinə müsbət təsir göstərə biləcək elmi məqalələrin sayı 214-dür.

Beş gün (2-6 oktyabr tarixində) davam edəcək 74-cü Beynəlxalq Astronavtika Konqresini məhz Bakıda keçirmək üçün daha öncədən bir sıra işlər görülüb. Üç gün ərzində konqres çərçivəsində konfranslar, 190-dan çox texniki sessiya və sərgilər təşkil olunacaq. Tədbirdə kosmik agentliklərin, dövlət sektorunun, investorlar və özəl kosmik şirkətlərin nümayəndələri, yerli və beynəlxalq media qurumlarının təmsilçiləri iştirak edirlər.

Heydər Əliyev Mərkəzi və Bakı Konqres Mərkəzinin ərazisində inşa edilən 7800 kvadratmetrlik sərgi pavilyonunda müxtəlif ölkələrin kosmik qurumları və şirkətlərinin stendləri nümayiş olunacaq beynəlxalq tədbir növbəti 2 gündə bütün qonaq və iştirakçılara kosmik sənayenin inkişafının gücləndirilməsi, qlobal tendensiyalar, kosmos innovasiyalar sahəsində tərəfdaşlıq və əməkdaşlıq yollarını müzakirə etmək imkanı verəcək. Bir sözlə, Beynəlxalq Astronavtika Konqresi özündə böyük və maraqlı bir konsepti birləşdirir. Bu, texniki sessiyalar, elmi məqalələr və sərgi pavilyonlarıdır. Onu demək yerinə düşür ki, həmin sərgi pavilyonları biznes imkanlarına da geniş yol açır. Beynəlxalq kosmik icmanın ekspertləri və liderlərini bir araya gətirən 74-cü Beynəlxalq Astronavtika Konqresi beynəlxalq səviyyədə əməkdaşlıq qurmaq üçün də imkanlar yaradır.

***Züleyxa ƏLİYEVA,***
***"Azərbaycan"***

# "Eternity-2023" kompüter dəstəkli komanda-qərargah təlimi keçirilir

Milli Müdafiə Universitetinin Hərbi İdarəetmə İnstitutunun Hərb Oyunları Mərkəzində Azərbaycan, Türkiyə və Gürcüstanın hərbi qulluqçularının iştirakı ilə "Eternity-2023" kompüter dəstəkli komanda-qərargah təlimi keçirilir.

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, nəzəri və praktiki hissədən ibarət olan, üç ölkənin hərbi qulluqçularının və aidiyyəti dövlət qurumlarının nümayəndələrinin cəlb olunduğu təlimdə strateji əhəmiyyətli, eləcə də regional iqtisadi layihələrin mühafizəsinin təşkili üzrə tapşırıqlar icra ediləcək.

Oktyabrın 6-dək davam edəcək təlimdə əsas məqsəd hər üç ölkənin Silahlı qüvvələri arasında qarşılıqlı əməkdaşlığın gücləndirilməsi və uzlaşmanın təmin edilməsidir.

# Dövlət Dumasının sədri Ermənistanın Roma statutunu qəbul etməsini strateji səhv adlandırıb

Rəsmi İrəvanın Roma statutunu ratifikasiya etməsi düşünülməmiş, strateji cəhətdən səhv addımdır. Bu, ilk növbədə, Ermənistan və onun vətəndaşları üçün problem yaradacaq.

AZƏRTAC xəbər verir ki, bu barədə Rusiya Dövlət Dumasının sədri Vyaçeslav Volodin özünün teleqram kanalında yazıb.

O qeyd edib ki, bu qərarı qəbul edənlər, ilk növbədə, "niyə" sualına cavab verməlidirlər. Dövlət Dumasının sədri vurğulayıb ki, Roma statutunun qəbul edilməsi Rusiya və Ermənistan xalqları arasında münasibətlərin inkişafına ziddir.

# Əmək fəaliyyəti ilə məşğul olmaq vədi ilə aldadılaraq ölkəyə gətirilən 31 əcnəbi saxlanılıb

Dövlət Miqrasiya Xidməti və Dövlət Təhlükəsizliyi Xidmətinin qanunsuz miqrasiyaya qarşı keçirdiyi birgə tədbirlər zamanı Bakı şəhərində müxtəlif ünvanlarda viza müddətindən artıq yaşayan 31 əcnəbi saxlanılıb.

AZƏRTAC xəbər verir ki, bu barədə Dövlət Miqrasiya Xidməti və Dövlət Təhlükəsizliyi Xidmətinin birgə məlumatında bildirilib.

Qeyd edilib ki, bu şəxslərin xaricdə yerləşən turizm şirkəti vasitəsilə 2500 Amerika dolları müqabilində Azərbaycanda əmək fəaliyyəti ilə məşğul olmaq vədi ilə aldadılaraq ölkə ərazisinə gəlmələrinin təşkil edilməsi müəyyən olunub. Təşkilatçı əcnəbiləri Bakı şəhərində müxtəlif ünvanlarda yerləşdirib, onların mənzilləri tərk etmələrinə mane olaraq, ölkə ərazisində qanunsuz miqranta çevrilmələrinə şərait yaradıb. Aşkar edilən hallarla bağlı materiallar hüquqi qiymət verilməsi üçün aidiyyəti hüquq-mühafizə orqanına göndərilib.

Ümumilikdə, 2023-cü ilin sentyabr ayı ərzində qanunsuz miqrasiyaya qarşı keçirilən təbirlər zamanı Dövlət Miqrasiya Xidməti tərəfindən 873 əcnəbi saxlanılıb. Onların ölkə ərazisində olma və yaşama hüququ verən sənədlər olmadan (qanunsuz) yaşaması, ölkəyə gəlişinin bəyan edilmiş məqsədinə uyğun olmayan fəaliyyətlə məşğul olması, qanunsuz əmək fəaliyyətinə cəlb edilməsi və ya qeydiyyat ünvanı üzrə yaşamadığı müəyyənləşdirilib. Həmin dövr ərzində miqrasiya qanunvericiliyini pozan 312 əcnəbi Azərbaycanın hüdudlarından kənara inzibati qaydada çıxarılıb və ölkəyə girişləri qanunla müəyyən edilmiş müddətə məhdudlaşdırılıb, digərlərinin ölkə ərazisində yaşamalarının qanuniləşdirilməsi və ya ölkəni könüllü tərk etmələri təmin olunub. Eyni zamanda, ölkədə olma, yaşama, əcnəbilərin işə cəlb olunması və digər aidiyyəti məsələlərlə bağlı ümumilikdə 2221 inzibati qərar qəbul edilib.

Vətəndaşlardan qanunsuz miqrasiya halları ilə rastlaşdıqda Dövlət Miqrasiya Xidmətinin (012) "919" Çağrı mərkəzi məlumatlandırmaları xahiş olunur. Çağrı mərkəzi həftənin 7 günü 24 saat fəaliyyət göstərir.

# 74-cü Beynəlxalq Astronavtika Konqresinə həsr olunmuş poçt markalarının möhürlənmə mərasimi keçirilib

Bakıda keçirilən 74-cü Beynəlxalq Astronavtika Konqresinə həsr olunmuş poçt markalarının möhürlənmə mərasimi olub.

AZƏRTAC xəbər verir ki, mərasim Heydər Əliyev Mərkəzində keçirilib.

Azərbaycan Kosmik Agentliyinin ("Azərkosmos") İdarə Heyətinin sədri Saməddin Əsədov və Beynəlxalq Astronavtika Federasiyasının (IAF) prezidenti Kley Mouri (Clay Mowry) markaları imzalayıblar.

"Azərpoçt" MMC tərəfindən hazırlanan marka Belarusun Bobruysk şəhərinin "Bobruisk Integrated Printing House" çap evində iki növ blok olmaqla, hər biri 5 000 ədəd tirajla çap edilib. Buraxılış üzrə hər bir blok 4 marka, ümumilikdə isə 8 markadan ibarət kiçik vərəqlər şəklindədir.



Möhürlənmə mərasimindən sonra "Azərkosmos"un İdarə Heyətinin sədri Saməddin Əsədov və Beynəlxalq Astronavtika Federasiyasının (IAF) prezidenti Kley Mouri, IAF-ın icraçı direktoru Kristian Faytinger Azərbaycanın poçt markaları nümunələri ilə tanış olublar.

Sonda IAF-ın prezidenti Kley Mouri və təşkilatın icraçı direktoru Kristian Faytinger marka olan zərfə imza atıblar.




# Xankəndidə dövlət idarəçiliyi təmin olundu

Cəmi 23 saatlıq antiterror tədbirləri nəticəsində suverenliyini bərpa edən Azərbaycan bu tarixi nailiyyətindən ötən çox qısa müddət ərzində Qarabağ bölgəsində dövlət idarəçiliyini müvəffəqiyyətlə yerinə yetirir.

Artıq Xankəndidə dövlət strukturlarımız fəaliyyətə başlayıb və burada yaşayan erməni sakinlərin reinteqrasiyasına uğurlu start verilib.

## Ermənilər Azərbaycan vətəndaşlığını qəbul edərək dövlətimizin himayəsində yaşamaq istəyirlər

Azərbaycan Respublikası Prezidenti Administrasiyasının oktyabrın 1-də yaydığı məlumatda bildirilir ki, Qarabağ bölgəsində yaşayan erməni sakinlərin Azərbaycan cəmiyyətinə dayanıqlı reinteqrasiyasının təmin edilməsi və Azərbaycan dövlətinin himayəsindən istifadə etmələrinə imkan yaradılması məqsədilə Dövlət Miqrasiya Xidmətinin, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin əməkdaşları Qarabağ iqtisadi rayonunda fəaliyyətə başlayıblar.

Hər iki qurumun mətbuat xidmətlərinin oktyabrın 2-də verdiyi birgə məlumatda artıq reinteqrasiya prosesinə qoşulmaq məqsədilə ilkin qeydiyyata alınmaq üçün Xankəndi şəhərində yerləşən qəbul şöbəsinə 5, bölgədə keçirilmiş səyyar qəbul zamanı isə 2 sakinin könüllü şəkildə Dövlət Miqrasiya Xidmətinə müraciət etdiyi bildirilib.

Müraciət edənlərin hər biri Qarabağ iqtisadi rayonunda yaşamaq və Azərbaycan Respublikası vətəndaşlığını əldə edərək dövlətin himayəsindən istifadə etmək istədiklərini deyiblər.

Bu faktların özü də bir daha göstərir ki, onilliklərin ardından Qarabağda qanunlarımız işləməyə, vətəndaşların hüquqları təmin edilməyə, bir sözlə, normal yaşama başlanılıb.

## Bu bölgəmizdə də həyat canlanır

Sərsəm "Miatsum" ideyasının eyforiyasına qapılaraq 1988-ci ildən etibarən dinc azərbaycanlılara qarşı etnik və milli zəmində təmizləmə siyasəti həyata keçirən ermənilər Qarabağ bölgəsini separatizm yuvasına çevirmişdilər. De-yuri Azərbaycanın ərazisi olsa da, 1988-ci ildən etibarən bu bölgə de-fakto Azərbaycan qanunlarının işləmədiyi, separatizmin at oynatdığı "boz zona"ya çevrilmişdi. "Müstəqillik" elan edən, əski parçaları düzəldən, "Artsax" adlı qondarma qurum yaradan separatçılar ötən illər ərzində Qarabağı Azərbaycandan qoparmaq üçün hər cür çirkin, murdar əmələ əl atmışdılar. Ermənistan və separatçılar ərazilərimizi işğal etməkdən, azərbaycanlıları zorla öz yurdlarından didərgin salmaqdan, onlara qarşı soyqırımları törətməkdən tutmuş hər cür vəhşiliklərə getmişdilər. Qarabağla bağlı Ermənistan və separatçıların çirkin planlarının baş dəstəkçiləri isə Fransa kimi erməni dəyirmanına su tökən riyakar dövlətlər olmuşdu. Buna görə idi ki, 30 il ərzində Azərbaycan ilə Ermənistan arasında sülh danışıqları istiqamətində yol alınmamış və münaqişənin sonsuzadək sürdürülməsi kimi məkrli niyyət güdülmüşdü.

Lakin 2020-ci il sentyabrın 27-də başlayan Vətən müharibəsi ilə torpaqlarının işğalına son qoyan Azərbaycan ötən üçillik zaman kəsiyində də ardıcıl tarixi qələbələrə imza atdı. 2023-cü il aprelin 23-də Laçında sərhəd-buraxılış məntəqəsi qurmaqla ərazi bütövlüyünü bərpa edən ölkəmiz bu ilin sentyabrında keçirdiyi antiterror tədbirləri ilə suverenliyini tam təmin etdi.

Bununla da həm murdar separatizm, həm sərsəm "Miatsum", həm də qondarma "Artsax" gorbagor oldu...

## Artıq bu ərazidə Azərbaycan qanunları işləyir

